# UNİKAL

№48 (2182) 29 dekabr 2023-cü il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev www.unikal.az unikal-1@mail.ru




# Tərəflər sülhün bir addımlığında:

## Ermənistan başqa yolun olmadığını anlayır



Səh.3

## General Bəkir Orucova hökm oxundu

*“Tərtər işi” ilə bağlı ittiham olunan general-mayor Bəkir Orucovun məhkəməsi başa çatıb.*
*”Unikal” xəbər verir ki, Bakı Hərbi Məhkəməsinin hakimi Zeynal Ağayevin sədrliyi ilə keçirilən iclasda hökm oxunub.*
*Hökmə əsasən, Bəkir Orucov 9 il 6 ay müddətinə azadlıqdan məhrum edilib.*
*İntiqam Məmmədov 6 il 6 ay, Rahib Məmmədov 6 il 6 ay, Ziya Kazımov 9 il 6 ay və Ülvi Rəşidov 9 il 6 ay müddətinə azadlıqdan məhrum ediliblər.*

Səh.3

## “Seçkiyə qədər sülh müqaviləsinin imzalanması çətin görünür”



*Sabiq dövlət müşaviri, politoloq Qabil Hüseynli ”Unikal”a müsahibə verib. O, uzun fasilədən sonra Ermənistanın baş naziri Nikol Paşinyanın Rusiyaya səfər etməsinin məqsədindən, Prezident İlham Əliyevin Nikol Paşinyanla sülh gündəliyini müzakirə etməsindən, sülh müqaviləsinin nə zaman imzalana biləcəyindən...*

Səh.4

## Nazim İbrahimovun Ukraynadakı biznesinin müəmmalı taleyi



*”Unikal” qəzeti keçmiş məmurların hazırda harada və nə işlə məşğul olduqları barədə silsilə yazıların dərcini davam etdirir. ”Sabiqlərin izi ilə” adlandırdığımız həmin silsilədən bugünkü məqaləmiz Nazim İbrahimov haqqındadır. O, 2008-2018-ci illərdə Azərbaycan Respublikasının Diasporla İş üzrə...*

Səh.8

## Elçin Əmirbəyov Zəngəzur dəhlizi ilə bağlı B planından danışdı



*Həll olunmayan məsələlərdən biri də Azərbaycanın əsas hissəsi ilə onun Naxçıvan eksklavı arasında əlaqədir. ”Unikal” xəbər verir ki, bu barədə Azərbaycan prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Elçin Əmirbəyov Britaniyanın ”The Guardian” nəşrinə açıqlamasında bildirib.*

Səh.5

UNI-46_27 IYUI-QARA.qxd 12/28/2023 9:42 PM Page 2



# Səidə ilə Elnaranın küsülü olma səbəbi bilindi



***"Həyatda ən acığım gələn insanlar hamıdan özünü ağıllı bilənlərdir. Belə insanları heç sevmirəm. Onlardan adama xeyir gəlməz. Elnarə ilə münasibətimiz "W-trio" qrupuna görə olub. Dərin dostluğumuz olmayıb. Amma həmişə hörmət saxlamışam".***

Bu sözləri müğənni Səidə Sultan "Tarixin bir günü" verilişində deyib. O, həmkarı Elnarə Xəlilova ilə küsülü olmasının əsl səbəbini açıqlayıb: "Soyuq münasibət illərdir aramızda davam edir. Əslində birinci mədəni olaraq mən ona sataşmışam. 15 il əvvəl zövqlə bağlı mənə sual veriləndə demişəm ki, Elnarənin zövqü yoxdur. O vaxt elə demişdim. Əslində indi də yoxdur. Olanı demişəm. Həmin vaxtdan mənimlə düşmən düşüb. Düzdür, Elnarədən adama düşmən çıxmaz, ayıb olar. Özünü ağıllı hesab edir və ona görə də elə danışır".

# Ayseli ailəsini dağıtmaqda ittiham edən qadın efirə gəldi





***Müğənni Aysel Əlizadəni həyat yoldaşı, iş adamı Elçin Nəcəfovla (Yetim Elçin) münasibətdə olmaqda ittiham edən Turanə Nəcəfova yenidən "Səni axtarıram"verilişinə çıxıb.***

Turanə aparıcı Xoşqədəm Hidayətqızının önündə diz çöküb. O bildirib ki, aparıcı ilə müğənnini məhkəmədə üz-üzə qoyduğu üçün vicdan əzabı çəkir: "Çox utanıram. Mənə görə məhkəmələrdə əziyyət çəkdiniz. Mənə görə təhdid olundunuz, sizə pullar təklif olundu, yenə də məni tək qoymadınız. Yanımda oldunuz, bu gün də mənim yanımdasınız. Sizdə olan qeyrəti biz çox kişidə görməmişik. Təşəkkür edirəm".

Xoşqədəm isə Turanəyə bu sözlərlə qarşılıq verib: "Niyə? Biz ki, məğlub olmadıq. Dəfələrlə qalib olduq. Əsas odur ki, sən aliment, evini aldın, övladınla görüşə bilirsən, onlar məktəbə gedirlər. Sən bunun üçün çalışırdın. Hər zaman yanındayam. Doğrudan da mənə çox pullar təklif olundu, təhdid olundum. Bunu bil ki, sən qalibsən".

Qeyd edək ki, Xoşqədəm Hidayətqızının verilişində qonaq olan Turanə Nəcəfova Aysel Əlizadəni keçmiş əri Elçin Nəcəfovla münasibətdə ittiham edib. Söhbət zamanı Xoşqədəm Hidayətqızı "Aysel Əlizadə atası yaşda kişi ilə pula görə münasibətdə ola bilməz, buna inanmıram. Ərim Doğuş onun haqqında maraqlanıb. Elə məqamlar ortaya çıxıb. Hamısını deyəcəyəm..." kimi fikirlər səsləndirib.

Müğənni X.Hidayətqızı və T.Nəcəfovanın dediklərini şərəf və ləyaqətinə xələl gətirdiyini əsas gətirərək təzminat iddiası qaldırıb. İddia 4 il ərzində müxtəlif instansiya məhkəmələrində mübahisələndirilib, bu günlərdə isə Ali Məhkəmədə yekun qərar çıxarılıb. Qərara əsasən, Xoşqədəm Hidayətqızı vurduğu mənəvi zərərə görə Aysel Əlizadəyə 2 min manat təzminat ödəməlidir. O, eyni zamanda üzr istəməli və dediklərini təkzib etməlidir(axşam.az).



## Nura Suri od püskürdü: "Məhkəmələrdə süründürəcəyəm"

***Müğənni Nura Suri sosial şəbəkədə onu təhqir edənlərə cavab verib.***

Bunu "Xəzər axşamı" verilişində danışan ifaçı tez-tez polisə müraciət etdiyini söyləyib: "Mənim haqqımda harada təhqir çıxırsa, onunla mübarizə aparıram. Hələ təkəm, inanıram mənə qoşulacaqlar. Bu işlərlə polisi yormuşam, amma anında taıpılır, iş məhkəməyə qədər gedir. Heç kimin kimisə təhqir etməyə haqqı yoxdur. Bu yaxınlarda iki fərqli səhifədən bir nəfər mənə şərh yazmışdı. Cavab verdim ki, sizdən polisə şikayət etmişəm, sona kimi gedəcəyəm və məhkəmələrdə süründürəcəyəm. Artıq 7 dəfədən çoxdur ki, polisə şikayət etmişəm. Mübarizə aparmaq lazımdır. Şərh yazanlar tapılıb, məhkəmələr də olub. Birinə 15 gün həbs cəzası verilmişdi".

## "Məni görmək sizə çoxdur" - Nazilə Səfərli

***"İtirdiyim dostlarımı öz hüzuruma, qulağımın dincliyinə qazanc hesab edirəm".***



Şairə Nazilə Səfərli sosial şəbəkə hesabında paylaşdığı bu sözləri ona nankorluq edən "dostlarına" ünvanlayıb.

Şairə ad çəkmədən ona pislik edən, arxasından işlər çevirən, vaxtilə dost dediyi insanlardan gileylənib: "İtirdiyim dostlarımı öz hüzuruma, qulağımın dincliyinə qazanc hesab edirəm. Nankorlar həmişə olub, olacaq da... Ətrafımdan oğurladığınız insanlar, əslində, aldadılmağa layiq idilər. Haqq etmisiniz. Məni görmək bəzilərinə çoxdur. Dostluğumda qırmızıya düşənlərə...".

## "Bəlkə dünyaya bir də gəldik" - Aygün Kazımova

***Xalq artisti Aygün Kazımova 2023-cü ilin son günlərində sevənlərini yeni mahnı və kliplə sevindirib.***

Axşam.az xəbər verir ki, "Bilmək olmaz" adlı bəstənin söz və musiqisi Miroya aiddir. Ölkənin əsas ulduzu ekran işi üçün Türkiyəyə yollanıb. Klip bir çox məşhurla işləyən Selim Akarın rejissorluğu ilə İstanbulda lentə alınıb.

Kazımovaya görə İstanbulda sahil, avtomobil məzarlığı və fabrik bağlatdırılıb. Klip süjet xətti ilə Hollivud filmlərini xatırladıb. Rejissor bildirib ki, çəkiliş üçün Hollivud filmlərinin lentə alındığı texniki vasitələrdən istifadə olunub. "Bilmək olmaz"ın görüntü rejissoru isə Varol Kaynar olub.

Klipdə müğənninin tərəf müqabili obrazını Peris Hiltonun tanınmış fotomodeli Marian Draqan canlandırıb. O, çəkiliş üçün Türkiyəyə gəlib. Klip 12 saat içində çəkilib. Ümumilikdə isə çəkiliş məkanında 100 nəfərdən ibarət işçi heyəti yer alıb.

Aygün Kazımovanın tərzi üzərində türkiyəli komanda və Berker Kuşku çalışıb.

UNI-46_27 IYUI-QARA.qxd 12/28/2023 9:42 PM Page 3





## Məhkəmə Vətən müharibəsi iştirakçısına 9 il 6 ay həbs cəzası verdi

***"Tərtər işi" ilə bağlı ittiham olunan Ziya Kazımovun məhkəməsi başa çatıb.***

"Unikal" xəbər verir ki, bu barədə hökm Sumqayıt Məhkəmə Kompleksində Bakı Hərbi Məhkəməsinin hakimi Zeynal Ağayevin sədrliyi ilə keçirilən iclasda elan edilib.

Hökmə əsasən, Vətən müharibəsi iştirakçısı Ziya Kazımov 9 il 6 ay müddətinə azadlıqdan məhrum edilib.

Xatırladaq ki, bir neçə il əvvəl də Ziya Kazımova əsassız olaraq cinayət işi açılmışdı. Həmin zaman Ziya Kazımov Prezident İlham Əliyevə müraciət etdi və yalnız dövlət başçısının müdaxiləsindən sonra o, ev dustaqlığına buraxılmışdı.

Məhkəmə istintaqı zamanı da Ziya Kazımovun orada iştirak etmədiyi sübuta yetirildi. Buna baxmayaraq, məhkəmə Ziya Kazımova ağır cəza verdi.

Qeyd edək ki, Z.Kazımov psixoloji problemlərdən əziyyət çəkdiyi üçün xəstəxanada müalicə olunur. Məhkəmə onun psixoloji durumunu da nəzərə almadı.

Ziya Kazımovun vəkili Bəhruz Bayramov saytımıza açıqlamasında bildirib ki, qərardan apellyasiya şikayəti verəcəklər: "Prokuror hansı ittihamı irəli sürmüşdüsə, məhkəmə də həmin cəzanı verdi. Bu, qərəzli qərardır", - deyə o bildirib.

## Nazirdən qovulan diplomatlarla bağlı açıqlama

### Ceyhun Bayramov: "Dövlət qurumlarında bu şəxslərlə bağlı ciddi faktlar var"

***"Fransanın Azərbaycandakı səfirliyinin iki əməkdaşı arzuolunmaz şəxs elan edilib. Ancaq ondan iki gün əvvəl tərəfimizdən Fransa səfirliyinə nota göndərilib. Azərbaycan dövlət qurumlarında bu şəxslərlə bağlı ciddi faktların mövcudluğu, onların araşdırılmasının vacibliyi, zəruriliyi bildirilmişdi. Lakin onlar araşdırmadan imtina etdilər".***

"Unikal" xəbər verir ki, bunu xarici işlər naziri Ceyhun Bayramov ilin yekunlarına dair mətbuat konfransında deyib. Nazir bildirib ki, Fransa dövləti öz əməkdaşlarının günahsızlığından əmin idisə, o, buna gedə bilərdi: "Onlardan heç bir cavab daxil olmadı. Dünən Fransa bizim səfirimizin iki əməkdaşını arzuolunmaz şəxs elan etdi. Bizim və Fransanın atdığı addımlar arasında fərq var. Biz sübut və faktlarla danışırıq. Fransa tərəfinin heç bir əsası olmayan bu addımı həmin ölkənin atdığı növbəti səhv addım idi".

Qeyd edək ki, 26 dekabr 2023-cü il tarixində Fransanın Azərbaycandakı səfiri Ann Buayon Xarici İşlər Nazirliyinə (XİN) çağırılıb. Fransa Səfirliyinin iki əməkdaşının diplomatik statuslarına uyğun olmayan və "Diplomatik əlaqələr haqqında" 1961-ci il Vyana Konvensiyası ilə ziddiyyət təşkil edən fəaliyyətlərinə görə ciddi etiraz bildirilib və onların Azərbaycan hökuməti tərəfindən "persona-non-grata" (arzuolunmaz şəxs) elan olunduğu Fransa səfirinin diqqətinə çatdırılıb. Həmin şəxslərin 48 saat ərzində Azərbaycan ərazisini tərk etməsi tələb olunub və XİN-in müvafiq etiraz notası Fransa səfirinə təqdim edilib.

# Nazim İbrahimovun Ukraynadakı biznesinin müəmmalı taleyi

### Sabiqlərin izi ilə: keçmiş komitə sədri müharibənin hələ də davam etdiyi bu ölkədəki "imperiyasını" hara köçürür?

***"Unikal" qəzeti keçmiş məmurların hazırda harada və nə işlə məşğul olduqları barədə silsilə yazıların dərcini davam etdirir. "Sabiqlərin izi ilə" adlandırdığımız həmin silsilədən bugünkü məqaləmiz Nazim İbrahimov haqqındadır.***

O, 2008-2018-ci illərdə Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin, 2002-2008-ci illərdə isə Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin sədri vəzifəsini icra edib.

1963-cü il təvəllüdlü Nazim İbrahimov sonuncu dəfə 2021-ci ilin sentyabrında general Rövşən Əkbərovun törətdiyi cinayətlə bağlı şahid qismində məhkəmə qarşısına çıxarılıb. Həmin vaxtdan bəri isə nə ictimaiyyət arasında, nə də mətbuatda görünmür.

N.İbrahimov komitə sədri postu ilə vidalaşdıqdan sonra onun həbs ediləcəyinə dair iddialar səsləndirilirdi. Belə iddiaların ortaya çıxması isə təsadüfi deyildi. Belə ki, Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının uyğun vaxtkı rəhbəri Ramiz Mehdiyev onun fəaliyyəti barədə tənqidi fikirlər söyləmişdi. Sitat: "Diasporla İş üzrə Dövlət Komitəsinin işində narazılıqlar var idi, Komitənin sədri Nazim İbrahimov öz vəzifəsinin öhdəsindən layiqincə gələ bilməyib. Təbii ki, bütün bunlardan Prezident İlham Əliyevin də məlumatı var. Buna görə də Prezident Nazim İbrahimovun işdən azad edilməsi barədə sərəncam verib. Nazim İbrahimovun rəhbərliyi dövründə nə Gürcüstanda, nə Avropa ölkələrində, nə də Orta Asiya ölkələrində yaşayan azərbaycanlılarla bağlı heç bir iş görülməyib. Düzdür, Komitədə müəyyən beynəlxalq tədbirlər keçirilib, amma konkret işlər görülməyib. Müəyyən tədbirlərin həyata keçirilməsində dövlət tərəfindən ayrılan maliyyə yardımları da öz ünvanına çatmayıb".

Nazim İbrahimov isə Mehdiyevin dediklərini inkar etməyərək mətbuata açıqlamasında bunları demişdi: "Ramiz Mehdiyev bizim ağsaqqalımızdır. Onun fikirləri tərəfimizdən birmənalı olaraq qəbul olunur".

Məhz Mehdiyevin çıxışından sonra N.İbrahimovun məsuliyyətə cəlb olunacağı bildirilirdi. Onun 55 yaşında vəzifə karyerasını bitirən əsas səbəbin də diasporda yeyintilərin olması göstərilir və sabiq komitə sədrinin cinayət məsuliyyətinə cəlb olunması gözlənilirdi. Lakin bu baş vermədi. O, vəzifədən azad edildikdən sonra komitə sədri olduğu dövrdə kifayət qədər böyütdüyü, genişlətdiyi biznesini birbaşa şəkildə özü idarə eləməyə başladı. Söhbət xüsusilə Ukraynadakı iri biznes şəbəkəsindən gedir. Bu şəbəkəyə ticarət mərkəzləri, müxtəlif profilli mağazalar, otellər və restoranlar daxildir. Həmçinin sabiq komitə sədrinin adıçəkilən ölkədə çox sayda mənzillərə, mülklərə sahib olduğu da yerli mediada dəfələrlə yazılıb.

N.İbrahimovun Ukraynadakı biznes imperiyasının yalnız paytaxt Kiyevlə məhdudlaşmadığı, adıçəkilən ölkənin ayrı-ayrı bölgələrini də əhatə etdiyi deyilir.

Vaxtilə diplomatik fəaliyyət göstərdiyi zaman Ukraynadakı biznesin təməlini qoyan İbrahimov Diasporla İş üzrə Dövlət Komitəsinə rəhbərlik etdiyi dövrdə isə onu daha da çiçəkləndirməyi bacarıb.

Komitə sədri olarkən onun bu ölkədəki obyektləri yaxın adamları tərəfindən idarə olunub. Vəzifəsini itirdikdən sonra isə İbrahimov mütəmadi şəkildə Ukraynaya gedib-gəlməyə başlayıb. Onun hətta biryolluq adıçəkilən ölkəyə köçdüyü, buradakı biznesini şəxsən idarə etməyə başladığı iddia olunurdu. Lakin 2021-ci ildə Rusiyanın Ukraynaya hərbi müdaxiləsinin və hələ də davam edən müharibənin ardından Nazim müəllimin hansı qərar qəbul etdiyi bilinmir. Sadəcə bəzi qaynaqlar onun adıçəkilən ölkədəki biznesini tədricən Avropaya daşımaq üçün yollar axtardığı, hətta bəzi konkret addımlar atdığı söylənilirdi.

Bu cür söyləntilər boş yerə ortaya çıxmamışdı. Çünki sabiq komitə sədrinin bir sıra xarici ölkələrdə də biznesinin varlığına dair mütəmadi məlumatlar yayılıb. Məsələn, İngiltərədə əmlaklarının olduğu deyilib, Şərqi Avropada və Rusiyada meyvə-tərəvəz satışı ilə məşğul olan şirkətlər qurduğu, Almaniyada da qazanc yerləri yaratdığı yazılıb. Son vaxtlar isə onun və ailə üzvlərinin daha çox Türkiyədə biznes fəaliyyətinə yönəldiyi yönündə iddialar var.



Yeri gəlmişkən, "vurulduqdan" qısa müddət sonra N.İbrahimovun oğlunun tikinti biznesinə girişdiyi barədə xəbərlər dolaşırdı. Belə ki, 2019-cu ildə ovaxtkı Vergilər Nazirliyi tərəfindən dövlət qeydiyyatına alınan, hüquqi ünvanı Bakı şəhəri, Yasamal rayonu, Mirəli Seyidov küçəsi ev 20, mənzil 22/23, nizamnamə kapitalı 100 manat olaraq göstərilən "Skypark" Mənzil-Tikinti Kooperativinin (MTK) qanuni təmsilçisi Elnur Nazim oğlu İbrahimov idi. Bildirilirdi ki, sabiq komitə sədrinin oğlu təsadüfən tikinti sektoruna maraq göstərməyib. Onun əmiləri - İbrahim Nehrəmli və Sahib İbrahimov uzun müddət məhz bu sektorda fəaliyyət göstərib. Hərçənd, İ.Nehrəmlinin və S.İbrahimovun adları müxtəlif tikinti qalmaqallarında hallanıb, barələrində çoxsaylı ittihamlar səsləndirilib. Hətta Sahib İbrahimov dələduzluğa görə həbs edilib.O, Cinayət Məcəlləsinin 178.3.2-ci (dələduzluq; külli miqdarda törədildikdə) və 308-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) maddələri ilə təqsirləndirilib.

Lakin son iddialar N.İbrahimovun oğlunun tikinti biznesinin uğurlu alınmadığı və adıçəkilən MTK-nın faktiki olaraq fəaliyyətsiz olduğu yönündədir.

Bir sözlə, vaxtilə ölkənin ən haykülü oliqarxlarından olan keçmiş komitə sədri üçün hazırda işlərin qaydasında getdiyini söyləmək çətindir. Hərçənd, onun xüsusilə Avropadakı biznesinin əvvəlki qədər güclü şəkildə olmasa da pis-yaxşı "ayaqda qala bildiyi" deyilir.

***Sənan Mirzə***

UNI-46_27 IYUI-QARA.qxd 12/28/2023 9:43 PM Page 4



# Tərəflər sülhün bir addımlığında:

## Ermənistan başqa yolun olmadığını qəbul edir



***Azərbaycan və Ermənistan potensial sülh sazişinin nisbətən qısa yeddi layihəsini mübadilə ediblər.***

”Unikal” xəbər verir ki, bunu Azərbaycan prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Elçin Əmirbəyov Britaniyanın ”The Guardian” nəşrinə açıqlamasında deyib. Elçin Əmirbəyov qeyd edib ki, ölkə hazırda Ermənistanın son təkliflər layihəsi ilə bağlı şərhlərinə cavab gözləyir: ”Danışıqların bu həlledici mərhələsində, yəqin ki, yekun razılaşmadan o qədər də uzaqda deyilik, sadəcə nəticəyönümlü hərəkətlərə ehtiyac var. Mən bilirəm ki, 30 illik danışıqlardan sonra və heç bir əsas nəticə olmadan hər iki tərəfdə müəyyən bir yorğunluq və məyusluq var ki, biz nə vaxta qədər heç bir ağlabatan nəticə olmadan bir-birimizlə görüşməyə davam edəcəyik”.

Onun sözlərinə əsasən, sülh sazişindəki beş prinsip bunlardır: ”Bir-birinin ərazi bütövlüyünə, suverenliyinə və beynəlxalq tanınmış sərhədlərinin toxunulmazlığına qarşılıqlı hörmət, indi və gələcəkdə bir-birlərinə qarşı hər hansı ərazi iddialarının və ziddiyyət təşkil edən hər hansı aktların rədd edilməsi, gücdən istifadə və ya güc tətbiq etmək hədəsi kimi BMT nizamnaməsinə zidd olan hər hansı hərəkətləri rədd etmək, eyni zamanda Ermənistan və Azərbaycan arasında heç vaxt edilməmiş sərhədin delimitasiyası və nəhayət, Ermənistanla Azərbaycan arasında kommunikasiya yollarının və əlaqələrin açılması, çünki 30 ildir münaqişə ucbatından heç bir əlaqəmiz yoxdur”.

Xarici İşlər Nazirliyinin ilin yekunlarına dair mətbuat konfransında nazir Ceyhun Bayramov Azərbaycanla Ermənista arasında sülhün yaranması ilə bağlı vəziyyəti şərh edib. O bildirib ki, Sülh müqaviləsinin imzalanmasına gedən yol çox açıqdır. Onun fikrincə, növbəti mərhələdə bunun əldə olunub-olunmayacağını görəcəyik. Nazir qeyd edib ki, sülh müqaviləsinin bağlanmasına qarşı müəyyən məqamlar var. “Bildiyiniz kimi, sülh prosesi ilə bağlı Azərbaycan təkliflər irəli sürüb. Bunun üzərində danışıqlar aparılır. Biz əgər heç nə əldə olunmamış kimi danışıqlar aparsaq, o zaman uzun müddət danışıqlar aparmalıyıq. Ona görə də fərqli yanaşmadan çıxış edirik. Bizi məmnun edən əsas məsələ iki tərəf arasında əldə olunan razılıqların vasitəçi olmadan inkişaf etdirilməsidir. Növbəti ildən bu istiqamətlərdə danışıqların davam etdirilməsini istəyirik. Müəyyən müsbət məqamlar var. Belə ki, noyabrın sonunda keçirilən delimitasiya komissiyasının iclası və razılığı buna nümunədir”, - o qeyd edib.

C.Bayramov başqa bir məqama da toxunub. O bildirib ki, Ermənistanla bütün görüşlər zamanı işğal altındakı kəndlər məsələsi müzakirə olunur. O qeyd edib ki, ciddi ərazi münaqişəsi olmayan dövlətlər arasında belə delimitasiya məsələsi uzun illər çəkə bilər: “Biz sülh müqaviləsinin daha tez zamanda başa çatmasında maraqlıyıqsa, iki prosesi bir-birinə bağlamağımız düzgün olmaz”.



**Ceyhun Bayramov: “Bizi məmnun edən əsas məsələ iki tərəf arasında əldə olunan razılıqların vasitəçi olmadan inkişaf etdirilməsidir”**



**Aydın Mirzəzadə: “Onlar bu sülhün ilk növbədə Ermənistanın maraqlarına cavab verdiyini dərk edərlərsə, saziş tezliklə imzalana bilər”**

Delimitasiya komissiyasının iclası zamanı 8 kəndin məsələsinə baxılacağını söyləyən nazir deyib: “Amma o kəndlərin də spesifikaları var. Onlardan 4-ü anklav kəndlərdir, 4-ü isə bizim digər kəndlərə bitişikdir. Bununla belə, Ermənistanın da öz iddiaları və sərhədlərlə bağlı baxışları var. Biz isə konkret olaraq yaşayış məskənlərindən danışırıq. Onların kimə məxsusluğu heç zaman mübahisə mövzusu olmayıb, orada minlərlə insan yaşayıb. Hamı bilir ki, sovet Azərbaycanında bu kəndlər kimə aid olub. Ona görə də bizim tələbimiz ədalətlidir”.

Nazir vurğulayıb ki, delimitasiya prosesi kifayət qədər spesifik və texniki məsələdir. ”Sərhəd məsələsi delimitasiya prosesinin tərkib hissəsi olaraq həllini tapmalıdır. Azərbaycan sülh məsələsinin mümkün qədər tez həllini tapmasında maraqlıdır. Amma delimitasiya məsələsi daha uzun çəkə bilər”, - Ceyhun Bayramov bildirib. Qeyd edək ki, 8 kənd dedikdə Naxçıvanın Sədərək rayonunun Kərki, Qazaxın Sofulu, Bərxudarlı, Bağanis Ayrım, Qızıl Hacılı, Yuxarı Əskipara, Aşağı Əskipara, Xeyrimli kəndləri nəzərdə tutulur.

Nazir onu da qeyd edib ki, Azərbaycanla Rusiya arasında münasibətləri tənzimləyən çoxsaylı sənədlər var. Onun sözlərinə görə, bu sənədlərə əsasən Rusiya Azərbaycanın ərazi bütövlüyünü qeyd-şərtsiz dəstəkləyir: “Amma Ermənistanla Azərbaycan arasında sülh gündəliyi ikitərəfli məsələdir. Rusiya Prezidenti Vladimir Putin də Qarabağın Azərbaycan ərazisi olduğunu deyib. Rusiya hər zaman bu mövqeyini təsdiq edib”.

Məsələ ilə bağlı “Unikal”a açıqlama verən deputat Aydın Mirzəzadə bildirib ki, Ermənistan bu prinsipin heç birini rədd etmir: “Çox çətinliklə də olsa, etiraf edirlər ki, bunlar qəbuledilməndir. Bununla belə, onlar bu 5 prinsipə beynəlxalq hüquq normalarına uyğun olmayan və yaxud Azərbaycanın suverenliyini məhdudlaşdıran başqa prinsiplər də əlavə etmək istəyirlər. Buna görə də, sülh müqaviləsinin imzalanması çətinləşir. Son günlər həm Azərbaycan, həm də Ermənistan tərəfindən verilən bəyanatlar onu göstərir ki, tərəflər sülh müqaviləsi imzalamağa yaxındırlar. Düzdür, müəyyən məsələlər var ki, onların həlli uzun zaman və gərgin iş tələb edir”.

Deputat qeyd edib ki, tərəflər öz təkliflərini bir-birlərinə göndərirlər: ”Azərbaycan Ermənistanın təkliflərinə cavab verib və qarşı tərəfin geri cavabını gözləyir. Hesab edirəm ki, tərəflər sülh əldə etməyə doğru addımlayırlar. Əgər onlar bu sülh müqaviləsinin ilk növbədə Ermənistanın maraqlarına cavab verdiyini dərk edərlərsə, saziş tezliklə imzalana bilər. Azərbaycan sülh müqaviləsinin imzalanması üçün bütün səylərini göstərir. Artıq Ermənistan razılaşıb ki, sərhədlərin delimitasiyası və demarkasiyası sülh müqaviləsindən sonra yaradılacaq komissiyanın işi ilə həll edilsin. Bunun özü də, ciddi nəticə hesab olunmalıdır. Digər məsələlər də gec-tez öz həllini tapacaq. Sülhdən başqa çıxış yolu yoxdur. Sülhün əldə edilməsi üçün Azərbaycan dövləti tərəfindən bütün zəruri addımlar atılır”, - deyə o bildirib.

Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin İdarə Heyətinin sədri Fərid Şəfiyev 2023-cü ilin yekunlarına həsr olunan mətbuat konfransında sülh prosesi barədə fikirlərini bölüşüb. O bildirib ki, Azərbaycan Ermənistanla sülhə çox yaxındır. Onun sözlərinə görə, rəsmi Bakının hədəfi Ermənistanla sülh sazişidir. Fərid Şəfiyev sülh sazişinin nə zaman imzalancağını deməyin çətin olduğunu vurğulayıb: “Lakin əsas mübahisəli məsələlər sıfıra enib. Demarkasiya, delimitasiya uzun prosesdir və bu, sənədə daxil edilməyəcək, çünki bu proses uzun çəkir. Rusiya ilə 25 il çəkib. Gürcüstanla sərhədin bir hissəsi heç müəyyən olunmayıb”.

Fərid Şəfiyev qeyd edib ki, sülh sazişi əsas prinsiplər məsələsində uzlaşmaqdır: ”İndiki zamanda daha çox Ermənistan sülh sazişində maraqlıdır. Bu, bölgəyə sabitlik gətirəcək”. Mərkəzin rəhbərinin sözlərinə görə, antiterror tədbirlərindən sonra beynəlxalq təşkilatlar və mətbu orqanların Azərbaycana qarşı qərəzli mövqeyi kəskinləşib: ”Azərbaycana qarşı həmişə qərəzli mövqe müşahidə etmişik, ancaq 2023-cü ildə, antiterror tədbirlərindən sonra bizə münasibətləri daha da kəskinləşdi”.

O vurğulayıb ki, Fransa Azərbaycana qarşı diplomatik müharibə aparır. ”İlk dəfə BMT TŞ Azərbaycana qarşı təklif irəli sürüldü və uğursuz oldu. Məndə olan məlumata görə, payız aylarında, oktyabr-noyabrda bu məsələni yenidən qaldırmaq istəyirlər”,- Mərkəz rəhbəri əlavə edib.

***Murad İbrahimli***

# Prezident Vergi Məcəlləsində dəyişiklik etdi



***Prezident İlham Əliyev "Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" 5 dekabr 2023-cü il tarixli qanunun tətbiqi və bundan irəli gələn bir sıra məsələlərin tənzimlənməsi barədə fərman imzalayıb.***

"Unikal" xəbər verir ki, fərmana əsasən, Nazirlər Kabineti fiziki şəxslərin binalara görə əmlak vergisi ödəməsi mexanizminin təkmilləşdirilməsi ilə bağlı təkliflərini 6 ay müddətində hazırlayıb dövlət başçısına təqdim etməli, qanundan irəli gələn digər məsələləri həll etməli, eləcə də aşağıdakı normativ hüquqi aktları 3 ay müddətində təsdiq edib Prezidentə məlumat verməlidir:

- Vergi Məcəlləsinin 13.2.82-ci maddəsinin ikinci cümləsinə uyğun olaraq, vergi ödəyicisinin riskli vergi ödəyicilərinin siyahısına daxil edilməsi və həmin siyahıdan çıxarılması qaydası və şərtləri;
- həmin Məcəllənin 15.1.15-4-cü maddəsinə uyğun olaraq, vergi ödəyicisinin digər vergi ödəyicilərinin vergi orqanında olan məlumatlarına çıxış əldə etməsi qaydası;
- həmin Məcəllənin 16.1.11-13-cü maddəsinə uyğun olaraq, taksi sifarişi operatorları tərəfindən malik olduqları informasiya sistemi vasitəsilə İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin elektron informasiya sisteminə ötürülməli olan aylıq məlumatların siyahısı;
- həmin Məcəllənin 85.6.2-ci maddəsinin ikinci cümləsinə uyğun olaraq, vergi ödəyicisinin vergi borcunu ödəmə qabiliyyətinin müəyyənləşdirilməsi qaydası;
- həmin Məcəllənin 102.1.14.33-cü maddəsinə uyğun olaraq, dəniz nəqliyyatında xarici daşımaçılıqla məşğul olan ticarət donanmasının heyət üzvlərinə vəzifə maaşlarına verilən aylıq əlavə pul təminatının məbləği;
- həmin Məcəllənin 111.4-cü maddəsinə uyğun olaraq, müflis elan olunmuş bankların vergitutma məqsədləri üçün xüsusi ehtiyatlarının yaradılması qaydası;
- həmin Məcəllənin 119.2-ci maddəsinə uyğun olaraq, nümayəndəlik xərclərinin, işçilərin mənzil və yemək xərclərinin, eləcə də əmək şəraiti zərərli, ağır olan və yeraltı işlərdə çalışan işçilərə verilən müalicə-profilaktik yeməklərlə, süd və ona bərabər tutulan digər məhsullar və vasitələrlə bağlı xərclərin gəlirdən çıxılması normaları və qaydası;
- həmin Məcəllənin 164.1.25-ci maddəsinə uyğun olaraq, idxalı əlavə dəyər vergisindən azad edilən lizinq müqaviləsinin obyekti olan əsas vəsaitlərin siyahısı;
- həmin Məcəllənin 164.1.31-ci maddəsinə uyğun olaraq, idxalı və satışı əlavə dəyər vergisindən azad edilən mineral gübrələrin və pestisidlərin siyahısı;

# Xankəndidə bir neçə bina yenidən qurulacaq



***Yaxın günlərdə Xankəndi şəhərində bir neçə binanın yenidən qurulmasına başlanılacaq.***

"Unikal" xəbər verir ki, bunu Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədr müavini İlqar İsbatov bildirib.

Onun sözlərinə görə, antiterror əməliyyatından sonra minalardan təmizlənmiş digər ərazilərdə də tikinti-quruculuq işlərinə başlanılıb.

# Leyla Abdullayeva əsassız olaraq Fransa XİN-ə dəvət edilib



***"Fransanın Azərbaycandakı Səfirliyinin iki diplomatı "persona non grata" elan edilib. Bundan 2 gün əvvəl Fransa Səfirliyinə nota göndərilib, onlar barəsində ciddi faktların olduğu və ciddi araşdırma aparılmasının zərurəti bildirilib".***

"Unikal" xəbər verir ki, bunu ilin yekunlarına dair keçirilən mətbuat konfransında xarici işlər naziri Ceyhun Bayramov deyib.

O qeyd edib ki, lakin Fransa Səfirliyi bunu inkar edib. Nəticədə səfir dəvət edilib və Azərbaycan ərazisində qanunsuz işlərlə məşğul olan şəxslərlə bağlı səfirə etiraz edilib, onların "persona non grata" elan edilmələri barədə məlumat verilib: "Dünən heç bir əsas gətirilmədən, dəlilsiz olaraq Leyla Abdullayeva Fransa XİN-ə dəvət edilib və qarşılıqlılıq prinsipi əsasında bizim iki diplomatımızın arzuolunmaz şəxs elan olunması bildirilib. Bizim və Fransanın addımları arasında fərq var. Biz dəlillərlə danışırıq və açıq araşdırmanın aparılmasını təklif etdik".

# Sülhməramlılar Azərbaycanı nə vaxt tərk edəcək?

***Rusiya sülhməramlı kontingentinin Azərbaycandakı fəaliyyəti 2025-ci ilə kimi nəzərdə tutulub.***

"Unikal" xəbər verir ki, bunu Xarici İşlər Nazirliyinin ilin yekunlarına dair mətbuat konfransında nazir Ceyhun Bayramov bildirib.

O qeyd edib ki, tərəflər arasında üçtərəfli bəyanat var və bu bəyanat liderlər səviyyəsində imzalanıb. "Bu sənəd əsas götürüləcək", - nazir deyib.

Qeyd edək ki, 10 noyabr sənədinə əsasən Azərbaycan ərazisinə Rusiya Federasiyasının sülhməramlı kontingenti yerləşdirilib. Rusiya Federasiyasının sülhməramlı kontingentinin qalma müddəti 5 ildir və müddətin bitməsinə 6 ay qalmış hazırkı müddəanın tətbiqinə xitam verilməsi niyyətini Tərəflərdən hər hansı biri bəyan etməzsə, avtomatik olaraq növbəti 5 illik müddətlərə uzadılır.



# Qarabağ və Şərqi Zəngəzurda işləmək istəyənlərin nəzərinə!



***Dövlət Məşğulluq Agentliyinin Vakansiya Bankında hazırda işğaldan azad edilmiş ərazilər üzrə 300-dən artıq vakant iş yeri var.***

Bu barədə "Unikal"a Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən (ƏƏSMN) məlumat verilib.

Bildirilib ki, Böyük Qayıdış proqramı çərçivəsində həmin ərazilərdə həyata keçirilən genişmiqyaslı tikinti-quruculuq işlərinin davam etdirilməsi, habelə keçmiş məcburi köçkünlərin doğma yurdlarına qayıdışı nəticəsində iqtisadi aktivlik yeni vakansiyaların formalaşması və tələb olunan peşələrin sayının artması ilə nəticələnir.

Mövcud vakansiyalar əsasən tikinti, kənd təsərrüfatı və xidmət sahələrini əhatə edir.

Vakansiyalara müraciət etmək istəyən işğaldan azad olunmuş ərazilərdə məskunlaşmış və ya məskunlaşması nəzərdə tutulan keçmiş məcburi köçkünlər ərazi üzə regional məşğulluq filiallarına və ya DOST mərkəzlərinə yaxınlaşa bilərlər.

# Ceyhun Bayramov Mirzoyanla sərhəddə görüşə bilər

***Azərbaycan və Ermənistan danışıqları üçüncü tərəfin girovuna çevrilməməlidir.***

"Unikal" xəbər verir ki, bunu Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov nazirliyin ilin yekununa dair hesabat brifinqində çıxışı zamanı deyib.

Nazir bildirib ki, Azərbaycan



və Ermənistan xarici işlər nazirləri və nümayəndə heyətləri dövlət sərhədində görüşə bilər. Belə bir təkliflə Azərbaycan çıxış edib.

XİN başçısı xatırladıb ki, iki ölkənin delimitasiya komissiyaları artıq iki dəfə sərhəddə görüşüb.

Baş redaktor:
**Zaur Əhməd**

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.

Tiraj:2000

# Kəlbəcər, Şuşa və Qubadlının baş planları təsdiq ediləcək

***Yaxın vaxtlarda Kəlbəcər, Şuşa və Qubadlı şəhərlərinin baş planları təsdiq ediləcək.***

"Unikal" xəbər verir ki, bunu Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədr müavini İlqar İsbatov bildirib.

"Həmin şəhərlərin razılaşdırma sənədlərinin hazırlanması yekunlaşmaq üzrədir", - deyə o əlavə edib.



# Prezident seçkisinin monitorinqini aparacaq QHT koalisiyası yaradıldı

***Fevralın 7-də keçiriləcək növbədənkənar Prezident seçkilərinin monitorinqini keçirəcək QHT koalisiyası yaradılıb.***

"Unikal" xəbər verir ki, bu barədə "Mənim səsim" Seçki-Monitorinq Koalisiyasından məlumat verilib.

Bildirilib ki, D.Əliyeva adına Qadın Hüquqlarının Müdafiəsi İB-nin sədri Novella Cəfərova, İnsan Hüquqları və Qanunçuluğun Müdafiəsi İB-nin sədri Səidə Qocamanlı, Beynəlxalq İnsan Hüquqları Təşkilatının Azərbaycan bölməsinin sədri Səadət Bənənyarlı 2024-cü il fevralın 7-də Azərbaycan Respublikasında keçiriləcək növbədənkənar prezident seçkilərinin monitorinqini həyata keçirmək məqsədi ilə "Mənim Səsim" Seçki-Monitorinq Koalisiyasını təsis ediblər.

"Koalisiyanın işində tanınmış ekspert və politoloqlardan ibarət qrup, peşəkar müşahidəçilər komandamız fəaliyyət göstərəcək. Koalisiya seçkinin bütün mərhələlərinin monitorinqini apararaq aralıq, seçki günü və yekun hesabatlar hazırlayıb ictimaiyyətə təqdim edəcək" - Koalisiyanın bəyanatında bildirilib.

UNI-46_27 IYUI-QARA.qxd 12/28/2023 9:43 PM Page 6



# “İrandakı səfirliyimiz bu halda fəaliyyətini bərpa edəcək” - XİN rəhbəri

***”Azərbaycanın İrandakı səfirliyinin bağlanmasının konkret səbəbləri var. Bu, səfirliyimizə olan hücumla bağlı idi. Təhlükəsizlik məsələləri ilə bağlı qiymətləndirmələrimizə əsasən, insanların həyat və təhlükəsizliyi üçün ciddi risk var idi”.***

”Unikal” xəbər verir ki, bunu xarici işlər naziri Ceyhun Bayramov ilin yekunlarına dair mətbuat konfransında deyib. Nazir bildirib ki, səfirlik məlum terror hadisəsindən sonra tam şəkildə təxliyə edilib.



Onun sözlərin görə, terror hadisəsindən sonra Azərbaycanın İrandakı səfirliyinin yenidən açılması məsələsinin İran tərəfi ilə müzakirə mövzusu olduğu sirr deyil:

”Azərbaycan tərəfinin gözləntisi ondan ibarətdir ki, məlum cinayəti törətmiş şəxs ən sərt formada cəzalandırılmalıdır. Eyni zamanda, Azərbaycanın İrandakı səfirliyinin təhlükəsizliyinə tam zəmanət verilməlidir. İranın hüquq-mühafizə orqanları müəyyən işləri yekunlaşdırıb. İran tərəfindən bizə məhkəmə prosesinin başlanması ilə bağlı tarixlər də verilib. Gözləntilərimiz həmin məhkəmə prosesinin keçirilməsi və onun nəticələri ilə bağlı olacaq. Məhkəmə prosesi və onun nəticələrindən asılı olaraq, növbəti qərar qəbul ediləcək. Qeyd etdiyim məsələlər müsbət həllini taparsa, səfirliyimizin İranda fəaliyyətinin bərpa edilməsi mümkün olacaq”.

# Heydər Əliyev Fondu uşaqlar üçün bayram şənliyi keçirdi

***Heydər Əliyev Fondu Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il ərəfəsində xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün şənlik keçirib.***

”Unikal” xəbər verir ki, “Gülüstan” sarayında təşkil edilən bayram şənliyinə müxtəlif uşaq evlərində və internat məktəblərində tərbiyə alan, sağlamlıq imkanları məhdud və xüsusi qayğıya ehtiyacı olan uşaqlar, eləcə də şəhid övladları dəvət alıblar.

Uşaqlar şənliyin keçirildiyi saraya onlar üçün ayrılmış avtobuslarla gəliblər. Bayram ovqatı ilə bəzədilən şənlik məkanında balacaları nağıl qəhrəmanları qarşılayıblar. Face Art vasitəsilə uşaqlar özləri də istənilən möcüzə qəhrəmanını canlandırmaq imkanı qazanıb.

Bayram şənliyi Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin uşaqlara qayğısından, müxtəlif illərdə Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramlarında uşaqlarla bir yerdə olmasından bəhs edən video çarxın nümayişi ilə başlayıb.

Uşaqlara təqdim edilən Yeni il səhnəciyi dostluq, xeyirxahlıq, qarşılıqlı kömək və xeyirin şərə qalib gəlməsi üzərində qurulub. Tamaşada müxtəlif nağıl qəhrəmanları ilə yanaşı qarşıdan gələn 2024-cü ilin rəmzi olan əjdaha obrazı da canlandırılıb.

Yeni il ovqatlı sarayda rəqslərə qoşulan, mahnılar ifa edən uşaqlar bayramı tanınmış sənətçilərin, sevimli nağıl və cizgi filmləri qəhrəmanlarının əhatəsində qeyd ediblər.

Musiqili-əyləncəli proqram müxtəlif uşaq kollektivlərinin və Azərbaycan incəsənət ustalarının iştirakı ilə təqdim edilib. Xüsusi qayğıya ehtiyacı olan uşaqların qarşısında xalq artistləri Aygün Kazımova, Zülfiyyə Xanbabayeva, Əməkdar artist Manana və digər incəsənət xadimləri, o cümlədən Aysel Teymurzadə, Elnur Məmmədov, Günay İbrahimli, Murad Arif, Zamiq Hüseynov çıxış ediblər.




Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu valideyn himayəsindən məhrum, sağlamlıq imkanları məhdud olan uşaqların, Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərimizin bizə əmanəti olan övladlarının problemlərinin həllinə xüsusi diqqətlə yanaşır, bu uşaqların hər zaman qayğı ilə əhatə olunmasına çalışır. Fondun ənənəvi Yeni il şənlikləri də məhz həmin kateqoriyadan olan uşaqları sevindirmək məqsədilə təşkil edilir.

İki saata yaxın davam edən əyləncəli proqramın sonunda uşaqlara Heydər Əliyev Fondu tərəfindən bayram hədiyyələri verilib.

# Mədət Quliyevlə bağlı fərman imzalandı

***İnzibati və yardımçı vəzifələrin təsnifat toplusuna dəyişiklik edilib.***

”Unikal” xəbər verir ki, bu, Prezident İlham Əliyevin Azərbaycan Respublikası Prezidentinin “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” 2000-ci il 29 dekabr tarixli 435 nömrəli, “İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusunun təsdiq edilməsi haqqında” 2003-cü il 4 avqust tarixli 911 nömrəli, “Xüsusi rabitə ilə bağlı bəzi məsələlər haqqında” 2019-cu il 11 aprel tarixli 622 nömrəli, “Azərbaycan Respublikasının Təhlükəsizlik Şurası katibinin xidməti haqqında Əsasnamə”nin təsdiq edilməsi barədə” 2019-cu il 11 sentyabr tarixli 829 nömrəli fərmanlarında və “Ezamiyyə xərclərinin 1 günlük normalarına əlavələrin və həmin əlavələrin tətbiq olunduğu rəhbər işçilərin siyahısının təsdiq edilməsi barədə” 2008-ci il 10 mart tarixli 2715 nömrəli Sərəncamında dəyişiklik edilməsi haqqında Fərmanında əksini tapıb.



Dəyişikliklə Azərbaycan Respublikası Təhlükəsizlik Şurası katibinin müavini dövlət orqanlarında inzibati vəzifələr siyahısına daxil edilib.

Azərbaycan Respublikası Təhlükəsizlik Şurası katibinin müavini hökumət rabitəsi ilə təmin olunan vəzifəli şəxslərin siyahısına daxil edilib.

Qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti yanında Təhlükəsizlik Şurasının katibinin müavini Mədət Quliyevdir.

# Bir qrup vəkil “Tərəqqi” medalı ilə təltif edilib

***Prezident İlham Əliyev bir qrup vəkilin “Tərəqqi” medalı ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb.***

”Unikal” xəbər verir ki, Sərəncamla Azərbaycan Respublikasında vəkilliyin inkişafındakı xidmətlərinə görə aşağıdakı şəxslər “Tərəqqi” medalı ilə təltif ediliblər:

Hüseynov Əli Meybulla oğlu
Hüseynov Turqay İmanqulu oğlu
Hüseynova Esmira Hüseyn qızı
Qasımov Telman Abiəli oğlu
Quliyev Azər Şahbala oğlu
Məmmədova Leyla Polad qızı
Mustafayev Muxtar Nağı oğlu
Nəhmətov Fazil İldır oğlu
Rəsulov Arif Əmrulla oğlu
Rüstəmova Natəvan Famil qızı
Usub Elçin Arif oğlu.

# Azərbaycan və Rusiyanın Baş nazirləri qarşılıqlı əlaqələri müzakirə etdilər

***Azərbaycan və Rusiya Federasiyasının Baş nazirləri Əli Əsədov və Mixail Mişustin arasında telefon danışığı olub.***

”Unikal” xəbər verir ki, bu barədə Rusiya hökumətinin ”Telegram” kanalında məlumat dərc olunub.

Həmkarlar iki ölkənin sənaye və nəqliyyat sahəsində qarşılıqlı fəaliyyətini müzakirə ediblər: ”Mixail Mişustinin Azərbaycanın Baş Naziri Əli Əsədov ilə telefon danışığı olub. Hökumət başçıları Rusiya-Azərbaycan ticarət-iqtisadi əməkdaşlığının cari məsələlərini müzakirə ediblər. Sənaye və nəqliyyat sahəsində qarşılıqlı əlaqələrin inkişafına xüsusi diqqət yetirilib”.

Baş nazirlər MDB və digər çoxtərəfli formatlarda birgə işdən də bəhs ediblər.

***Ağarza Elçinoğlu***

# General Bəkir Orucova hökm oxundu

***“Tərtər işi” ilə bağlı ittiham olunan general-mayor Bəkir Orucovun məhkəməsi başa çatıb.***

”Unikal” xəbər verir ki, Bakı Hərbi Məhkəməsinin hakimi Zeynal Ağayevin sədrliyi ilə keçirilən iclasda hökm oxunub.

Hökmə əsasən, Bəkir Orucov 9 il 6 ay müddətinə azadlıqdan məhrum edilib.

İntiqam Məmmədov 6 il 6 ay, Rahib Məmmədov 6 il 6 ay, Ziya Kazımov 9 il 6 ay və Ülvi Rəşidov 9 il 6 ay müddətinə azadlıqdan məhrum ediliblər.

# Nazir onu baş dirijor təyin etdi

***Heydər Əliyev Sarayının tabeliyində fəaliyyət göstərən Niyazi adına Dövlət Simfonik Orkestrinin bədii rəhbər-baş dirijoru vəzifəsinə təyinat olub.***

”Unikal” xəbər verir ki, bununla bağlı mədəniyyət naziri Adil Kərimlinin müvafiq əmr imzalayıb.

Əmrə əsasən, tanınmış dirijor, Xalq artisti Yalçın Adıgözəlov bu vəzifəyə təyin edilib.

# Azərbaycan və Türkiyə birgə hərbi təlimlər keçirib

***Azərbaycan və Türkiyə birgə hərbi təlimlər keçirib.***

”Unikal” xəbər verir ki, bu barədə Türkiyə Milli Müdafiə Nazirliyinin sözçüsü Zeki Aktürk həftəlik brifinqdə çıxışı zamanı bildirib.

”26-28 dekabr tarixləri arasında Azərbaycanda ”Hibrid Təhdidlərə Cavab Təlimi” keçirilib”, - o qeyd edib.

”Regional və qlobal sülhə dəstək çərçivəsində ”İki dövlət, bir millət” anlayışı ilə bərabər olduğumuz Azərbaycana dəstəyimiz davam etməkdədir”, - Z.Aktürk əlavə edib.

UNI-46_27 IYUI-QARA.qxd 12/28/2023 9:43 PM Page 7





# Siyavuş Novruzov "Maaş ayın axırına çatmır" dedi

## Tural Abbaslı isə "Yəqin, elə işlər görür ki, 5-6 min manat ona çatmır" cavabını verdi

***Nə 12-ci, nə 13-cü əməkhaqqı var. Ancaq deputatın aylıq əməkhaqqısıdır. İldə 3 dəfə mükafat alırdıq, bunlar da ləğv olundu".***

Bu fikirləri deputat Siyavuş Novruzov Müsavat TV-nin canlı efirində bildirib. Deputatların əməkhaqlarından danışan millət vəkili əlavə edib ki, onlar hazırda təxminən 5 min manata yaxın maaş alırlar: "Bu maaş da tək bizim deyil. Gündə nə qədər insan qəbul edirik. Biri dərman puluna, biri yemək puluna, biri təhsil haqqına gəlir. Elə olur ki, heç maaş ayın axırına çatmır. Milli Məclisin deputatlarından hamısı biznesmen, iş adamı deyil ki. Eləsi var kirayədə yaşayır, kirayə haqqını çatdıra bilmir. Deputatların əksəriyyəti kreditdədir".

S. Novruzov eyni zamanda prezident seçkiləri haqda da fikirlərini ifadə edib. Onun sözlərinə görə, bir il qabaqdan artıq partiyaların namizədləri hazır olmalıdır: "Bəziləri gözləyir ki, gəlib onlarla məsləhət olmalıdır: seçkiyə gedək, ya getməyək? Nə qədər ziyalı, siyasi partiya rəhbəri cənab Prezidentə səs verəcəklərini, namizəd olmayacaqlarını bildirirlər. Biri isə durub deyir ki, mən müxalifətəm. Ə sənə bu adı Dədə Qorqud verib, Nuh peyğəmbər verib? Sən hardan oldun müxalifət? Kim verib sənə bu adı, vərəsəliklə olur? Bu 90-cı illərin fikirləri, rəyləri idi ki, bəs filan partiya iştirak etməsə, demokratik seçki olmayacaq.

Seçim xalqın, seçicinin deyil? Kim iştirak etmək istəyir, meydan açıqdır. Bu gün namizədliyini irəli sürməyən partiya sədrlərindən heç biri 30 ildə namizədliyini irəli sürməyib. Tural Abbaslını keçirəm, yaşı çatmayıb. Digərləri amma iştirak edə bilərdi, hansında iştirak ediblər? Ona görə də deməsinlər ki, bunda da namizədliyimizi verməyəcəyik. Çünki qorxublar, güclərinə bələddirlər. Bizim tam dəqiq məlumatımız var ki, bəzi partiya sədrləri bəzi ölkələrin səfirləri ilə görüşdükdən sonra seçkilərdə iştirak etməmək qərarı verdilər. Prezident İlham Əliyev 90 %-dən çox səs toplayacaq. Digər 20 namizəd də 1 %-i bölüşdürərlər aralarında. Zahid Oruc da namizədliyini irəli sürə bilər. Buyursun, öz gücünü sınasın. Düşünürəm ki, o, 0,1 % səs toplayacaq (gülür)".

Məsələ ilə bağlı "Unikal"a açıqlama verən Ağ Partiyanın sədri Tural Abbaslı bildirib ki, Azərbaycanda hər kəsin maaşı yüksək olmalıdır: "Mən həmişə deyirəm ki, niyə müəllimlərin, həkimlərin, hərbçilərin maaşı, pensiyaçıların aldığı məbləğ yüksək deyil? Azərbaycan reallığı isə ondan ibarətdir ki, hazırda ölkədə minimum əməhaqqının məbləği 345 manat təşkil edir. Bu şəraitdə deputatın "Maaşımla dolana bilmirəm" deməsində 2 nüans ola bilər. Birincisi, ola bilsin ki, burada qeyri-səmimilik var. Bilirik ki, deputatlar 5-6 min manat maaş alırlar. Hələ Siyavuş müəllim komitə sədridir, onun maaşı daha yüksək ola bilər. Bununla dolana bilməmək inandırıcı deyil. İkincisi isə, ola bilsin ki, Siyavuş müəllim bədxərcdir. Əgər 3-4 nəfərlik ailə 5-6 min manatla dolana bilmirsə, burada ya qeyri-səmimilikdən, ya da bədxərclikdən söhbət gedə bilər. Mən düşünürəm ki, burada qeyri səmimilik daha çoxdur. Ya da, bəlkə, Siyavuş Novruzov elə işlər görür ki, 5-6 min manat ona çatmır. Yəni, bahalı maşınlar, evlər, geyimlər və yüksək məbləğdə gündəlik xərclər və s. ola bilər", - deyə partiya sədri qeyd edib.

*Murad İbrahimli*

# "Seçkiyə qədər sülh müqaviləsinin imzalanması çətin görünür"

## Qabil Hüseynli: "Güman edirəm ki, gələn ilin birinci yarısında, mart-aprel aylarında sülh müqaviləsi imzalana bilər"

***Sabiq dövlət müşaviri, politoloq Qabil Hüseynli "Unikal"a müsahibə verib. O, uzun fasilədən sonra Ermənistanın baş naziri Nikol Paşinyanın Rusiyaya səfər etməsinin məqsədindən, Prezident İlham Əliyevin Nikol Paşinyanla sülh gündəliyini müzakirə etməsindən, sülh müqaviləsinin nə zaman imzalana biləcəyindən və başqa məsələlərdən danışıb.***

***-Qabil müəllim, bir neçə ay idi ki, Ermənistanın baş naziri Nikol Paşinyan Rusiyanın vasitəçiliyi ilə keçirilən siyasi toplantılarda iştirak etmirdi. Paşinyan 25-26 dekabr tarixlərində Avrasiya Ali İqtisadi Şurasının iclasında və MDB-nin qeyri-rəsmi sammitində iştirak etmək üçün Sankt-Peterburqa səfər etdi. Onu bu iclaslara qatılmağa nə vadar etdi?***

-Ermənistanın baş naziri Nikol Paşinyan gördü ki, getməsə, işlər daha çətin olacaq. Rusiya yolu bağlayıb, sabah qazı kəsər və Ermənistanda daxili sabitliyi pozan hərəkətlərə yol verə bilər. Onlar gördülər ki, Rusiya dişlərini möhkəm qıcayıb və bu səbəbdən siyasi manevr etdilər. Paşinyan Avrasiya Ali İqtisadi Şurasının iclasında bildirib ki, bu qurumda sırf iqtisadi məsələlərin müzakirə edilməsinin tərəfdarıdır. O, siyasi məsələlərin müzakirəsinin tərəfdarı olmadığını qeyd edib. Yəni, bir növ Rusiyanın Ermənistan-Azərbaycan arasında sülh müqaviləsinin bağlanmasında vasitəçilik səylərini rədd etdi. Nəticə etibarı ilə başını girələdi.

***-Bu səfər zamanı Rusiya Prezidenti Vladimir Putinlə Ermənistanın Baş naziri Nikol Paşinyan arasında qeyri-rəsmi söhbət baş tutub. Bu zaman hansı məsələlər müzakirə edilə bilər?***

-Rusiya Prezidenti Vladimir Putin Ermənistanın Qərbə meyllənməsini qəbul etmədiyini, bunun düzgün hərəkət olmadığını deyə bilər. Hətta buna imkan verməyəcəklərini Paşinyanın diqqətinə çatdırar. Onu da diqqətə çatdırar ki, Qərblə normal münasibət saxlaya bilərsiz, amma Rusiyanın Ermənistandakı hərbi bazaları qalacaq. Ermənistan həmişə Rusiyanın ağuşunda oturub və bundan sonra da oradan çıxmağa can atmalı deyil. Burada təhdid xarakterli söhbətlər və şirin vədlər də ola bilər. Bir növ münasibətlərin qaydasında olduğu görüntüsünü yaratmaq üçün müxtəlif fikirlər də söyləyə bilər.

***-Bildiyiniz kimi, Rusiyanın Sankt-Peterburq şəhərində MDB Dövlət Başçılarının qeyri-rəsmi görüşündə Prezident İlham Əliyevin Ermənistanın baş naziri Nikol Paşinyanla ayaqüstü söhbəti olub. Söhbət əsnasında sülh gündəliyi müzakirə edilib. Bu danışıqlarda həm də hər hansı vasitəçiyə ehtiyac olmadığı görünürdü...***

-Düşünürəm ki, Nikol Paşinyan Azərbaycan Prezidenti ilə normal polemika apardı. Belə bir görüntü sərgiləndi ki, iki tərəfin də heç bir vasitəçiyə ehtiyacı yoxdur. İkilikdə də bu məsələ həll edilə bilər. Hər şey növbəti ilə hesablanıb. Yanvarda Vaşinqtonda Azərbaycan və Ermənistan XİN rəhbərlərinin görüşü planlaşdırılıb. Azərbaycan Prezidenti İlham Əliyevin və Ermənistanın baş naziri Nikol Paşinyanın danışıqları ciddi mesaj idi ki, biz artıq bir-birimizi başa düşürük. Aramızda normal münasibətlər bərqərar olub. Üstəlik sülh müqaviləsi ilə bağlı istənilən məsələni birlikdə müzakirə edib, çözə bilərik. Bu istiqamətdə lazım olan addımların atılması davam edəcək. Ola bilsin ki, bu, Qərbə də mesaj idi. Rusiyaya daha çox mesaj idi ki, siz işə qarışanda işlər daha da korlanır, gərginləşir. Özümüz bir-birimizi yaxşı başa düşürük, bu istiqamətdə işləri aparmaq fikrindəyik.

***-Bu danışıqlardan sonra növbəti ildə sülh müqaviləsinin nə zaman imzalanacağını düşünürsüz?***

-Qarşıdan prezident seçkiləri gəlir. Həmin müddətə qədər sülh müqaviləsinin imzalanması çətin görünür. Amma 2024-cü ilin birinci yarısında sülh müqaviləsinin imzalanması real görünür. Vaşinqtonun da bu prosesdə təşəbbüsü ələ aldığı görünməkdədir. Rusiyanın proseslərdən uzaqlaşdırılması üçün lazım olan basqılar həyata keçirilir. Güman edirəm ki, gələn ilin birinci yarısında - mart-aprel aylarında sülh müqaviləsi imzalana bilər.



***-Son günlər Fransa-Azərbaycan münasibətləri də əsas müzakirə mövzusudur. Belə ki, dekabrın 26-da Fransanın Azərbaycandakı səfiri Ann Buayon Xarici İşlər Nazirliyinə çağırılıb, səfirliyin iki əməkdaşının diplomatik statuslarına uyğun olmayan fəaliyyətinə görə Azərbaycan hökuməti tərəfindən "persona-non-grata" (arzuolunmaz şəxs) elan olunduğu Fransa səfirinin diqqətinə çatdırılıb. Həmin şəxslərin 48 saat ərzində Azərbaycan ərazisini tərk etməsi tələb edilib və XİN-in müvafiq notası Fransa səfirinə təqdim edilib. Fransanın bu cür addımlarının məqsədi nədir?***

-Fransa dinc dayanmır və Azərbaycana qarşı çox qərəzli bir siyasət aparır. Azərbaycan Xarici İşlər Nazirliyi də düzgün addım atıb, Fransa səfirliyinin iki əməkdaşını arzuolunmaz şəxs elan edib. Məlum olduğu kimi, Fransa Ermənistanı silahlandırır. Həmçinin, sülhyaratma prosesinə çox əngəllər yaradıb. Fransa tərəfi münasibətləri düşmənçilik dərəcəsinə qədər çatdırıb. Ermənistanı silahlarla təchiz edən Fransa destruktiv mövqe ortaya qoyur, bütün beynəlxalq hüquq normalarını pozur. Özünü beynəlxalq hüququn təbliğatçısı, bölgədə sülh və sabitliyin tərəfdarı kimi təqdim edən Fransanın bu addımları regionda dövlətlərin suverenliyi, ərazi bütövlüyü, beynəlxalq sərhədlərin qarşılıqlı şəkildə tanınması və hörmət edilməsi əsasında əlaqələrin normallaşdırılması səylərini ciddi şəkildə sual altına qoyur, vəziyyətin gərginləşdirilməsinə xidmət edir.

*Anar Kəlbiyev*

UNI-46_27 IYUI-QARA.qxd 12/28/2023 9:43 PM Page 8



# Oliqarx hotellərində soyuq qış günlərində ciblərimizi "yandıran" qiymətlər

## Yeni il ərəfəsindəki ağlasığmaz bahalaşmaya məntiqi izah tapmaq müşkülə çevrilib

***Yeni il tətilinə az qalıb. Dekabr ayının 15-dən başlanan qış turizm mövsümü qarşıdakı bayram günlərində canlanma yaşaya biləcəkmi? Bu suala cavab tapmaq asan deyil. Çünki hotellərdə fantastik tariflər müəyyənləşdirilib və bu qiymətlər mətbuatda başlıca müzakirə mövzularından biridir. Hətta bu yaxınlarda rəsmi dövlət qəzeti - ”Azərbaycan”da mövzu ilə bağlı geniş material hazırlayıb.***

Materialda bildirilib ki, turistlərin əksəriyyətinin yüksək olmayan büdcə ilə səyahət etdiyini nəzərə alsaq, öncədən planlaşdırılan istirahət zamanı ilk diqqət edilən məqam yerləşmə yerinin qiyməti olur. Qrup turları qiymət baxımından sərfəli olsa da, ailəliklə 2-3 günlük istirahət etmək üçün az qala evdəkilərin hamısının aylıq məvacibi xərclənməlidir. Üstəlik, ailə üzvləri çoxdursa, onda məsələ bir az da qəlizləşir.

Azərbaycanda qış turizmi üçün turistlər əsasən, Quba, Qusar, Qəbələ, Şamaxı, İsmayıllı, Şəki, Lerik, Lənkəran rayonlarına üz tuturlar. Bu rayonlarda yerləşən 3, 4 ulduzlu, həmçinin ulduz kateqoriyası olmayan kottec tipli hotellərdə belə qiymətlərin eyni olduğunu deyə bilərik. Məsələn, iki nəfərlik standart otaqlar 150 manat, Deluxe otaq 200 manat, 4 nəfərlik VIP otaq isə 250 manat məbləğində təklif olunur. Uşaqlar üçün otağa əlavə çarpayı verilməsi isə 6 yaşa qədər pulsuz, 6 yaşdan yuxarılara 30-40 manatdır. Mehmanxananın birgünlük qiymətinə isə yalnız səhər yeməyi, qapalı hovuz (olduğu təqdirdə), sauna, SPA, bilyard, kinoteatr, fitnes zal kimi müxtəlif xidmətlər daxildir. Təbii ki, onlar da işlək vəziyyətdə olarsa...

Bayramlarda həm böyüklərin, həm də uşaqların əylənmək istəyi müşkülə çevrilir. Çünki regionlarda, demək olar ki, əyləncə mərkəzlərinə rast gəlinmir. Görünən odur ki, mehmanxana sahibləri hotel ərazisində və ya yaxınlığında əyləncə mərkəzlərinin fəaliyyət göstərməsində maraqlı deyillər. Əyləncə turizminin olmaması yerli turistlərin xaricə üz tutmasının əsas səbəbləri arasında yer aldığını desək, yanılmarıq.

Bundan başqa, xarici ölkələrə səfərlərlə bağlı müəyyən turizm şirkətləri tərəfindən öncədən rezerv zamanı endirim təklifləri dekabr ayında region hotellərimizə şamil edilmir.

Rəsmi dövlət qəzetinin bir neçə hoteldən aldığı sorğudan daha bir ilginc məqam ortaya çıxıb: onların hamısı əvvəlcədən bron olunduğu halda belə hər hansı endirim tətbiq olunmadığını qeyd ediblər. Amma bununla yanaşı, Yeni ilə doğru qiymətlərin dəyişəcəyini xüsusi vurğulayıblar, təbii ki, bu dəyişiklik də yalnız qiymətlərin qalxması ilə bağlıdır. Halbuki bazarda təklifin çoxalması qiymətlərin müəyyən qədər enməsinə səbəb olmalıdır. Yəni rəqabət artdıqca hər büdcəyə uyğun hotellər tapmaq olar.

Doğrudur, bölgələrdə hotellərin sayının hələ də az olduğu vurğulansa da, son illərdə rayonlarda tikilən mehmanxanalar, turizm kompleksləri müəyyən qədər artıb. Bununla belə qiymətlərdə nəinki enmə, əksinə, artım müşahidə edilir. Əsas məsələ isə bu qiymətlərin qarşılığında təklif olunan xidmətlərin hansı səviyyədə olması və turistləri nə dərəcədə qane etməsidir.

Azərbaycan Turizm Agentlikləri Assosiasiyasının (ATAA) İdarə Heyətinin sədri Göydəniz Qəhrəmanov isə ”Azərbaycan”a açıqlamasında qış turizm mövsümündəki bahalaşma ilə bağlı danışarkən regionlarımızda hotellərin sayının hələ də az olduğunu vurğulayıb. O deyib ki, hazırda tələb çox olsa da, təklif o qədər deyil. ”Daha çox 4-5 ulduzlu hotellər olduğu üçün bəzi turistlər büdcəsinə görə qiymətlərdən narazılıq edirlər. Buna görə də otellərin baha olması ilə bağlı şikayətlər gəlir. Səbəbi hotellərin sayının az olması ilə bağlı rəqabət mühitinin formalaşmamasıdır.Elə regionlar var ki, orada cəmi bir hotel var. Bu mehmanxananın da qiyməti hər büdcəyə uyğun olmur”.

Qəhrəmanov vurğulayıb ki, bayram ərəfələri - Yeni il, Novruz, Qurban bayramı tətilləri turizm üçün əlverişli mövsüm sayılır. Bu dövrdə qiymətlər digər vaxtlardan baha olur. Təkcə Azərbaycanda deyil, ümumiyyətlə, dünyanın hər yerində bu mövsümün qiymətləri yüksək olur. Regionlarda elə hotellər var ki, Yeni il proqramlarına görə qiymətləri baha olur. Bunun üçün də bazarda təklif çox olmalıdır ki, onların qiymətləri tənzimlənsin.




Belə çıxır ki, regionlara turist axını ildən-ilə artsa da, tələb çoxalsa da, bölgələrimizdə mehmanxanaların sayının azlığı qiymətlərin hələ də yüksək olmasına gətirib çıxarır. Bu isə turist narazılığına səbəb olur. Müəyyən büdcə ilə səyahət planlaşdıranlar nəinki bir neçə günlük, heç birgünlük belə səfərə gedə bilmirlər. Bununla yanaşı, bəziləri regionlarda 2-3 günə xərclədiyi pulla qonşu ölkələrdə daha əyləncəli istirahətə üstünlük verirlər.

Müşahidələr göstərir ki, xarici ölkələrə ikinəfərlik 3-7 günlük tur paketlərin qiyməti (bura aviabilet, qonaqlama, gündə 3 dəfə qidalanma daxildir), demək olar ki, regionlardakı eyni müddətli istirahətə bərabər qiymətə gəlib çıxır, bəzən isə ucuz olur. Bundan başqa, rəqabətin yüksək olması, xidmətin keyfiyyəti, bol əyləncə də vətəndaşlarımızı xarici ölkələrə səyahət etməyə sövq edir. Çünki ”Yüksək keyfiyyət, aşağı qiymət” hər kəsə sərf edir.Biz isə bütün bunlara onu da əlavə edək ki, ölkənin turizm obyektlərindəki anormal bahalılığın başqa səbəbləri də var. Söhbət ilk növbədə bu sahədə məmur maraqlarından, inhisarçı meyllərdən gedir. Oliqarxların turizm sahəsindəki üstün mövqeləri rəqabət mühitini zədələyir, belədə isə soyuq qış günlərində belə ciblərimizi ”yandıran” anormal tariflərin ortaya çıxmasını şərtləndirir.

İstənilən halda hər nə qədər obyektiv və subyektiv səbəblər gətirilsə belə, Yeni il ərəfəsində qış turizmi bölgələrindəki hotellərdə müşahidə olunan fantastik dərəcədə yüksək qiymətlərə məntiqi izah tapmaq müşkül məsələdir.

***Toğrul Əliyev***

# Baş nazir bu qurumlarla bağlı qərar imzaladı

***“Yuxarı dövlət orqanı olmayan yoxlayıcı orqanların siyahısı” təsdiqlənib.***



”Unikal” xəbər verir ki, bu barədə Baş nazir Əli Əsədov qərar imzalayıb. Yuxarı dövlət orqanı olmayan yoxlayıcı orqanların siyahısı aşağıdakı kimidir:

1. Azərbaycan Audiovizual Şurası.
2. Əqli Mülkiyyət Agentliyi publik hüquqi şəxs.
3. Dövlət Reklam Agentliyi publik hüquqi şəxs.
4. İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi publik hüquqi şəxs
5. Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi publik hüquqi şəxs
6. Dənizkənarı Bulvar İdarəsi publik hüquqi şəxs
7. “Azərişıq” Açıq Səhmdar Cəmiyyəti
8. “Azəristiliktəchizat” Açıq Səhmdar Cəmiyyəti
9. Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin “Azəriqaz” İstehsalat Birliyi

# Elçin Əmirbəyov Zəngəzur dəhlizi ilə bağlı B planından danışdı



***Həll olunmayan məsələlərdən biri də Azərbaycanın əsas hissəsi ilə onun Naxçıvan eksklavı arasında əlaqədir.***

”Unikal” xəbər verir ki, bu barədə Azərbaycan prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Elçin Əmirbəyov Britaniyanın ”The Guardian” nəşrinə açıqlamasında bildirib.

Elçin Əmirbəyovun sözlərinə görə, Azərbaycan və Naxçıvan arasında əlaqə həm milli təhlükəsizlik baxımından, həm də orta dəhliz üçün alternativ marşrutun təmin edilməsi baxımından çox vacibdir: ”Daha çox vaxt itirə bilmərik. Üç ildən sonra Ermənistan 42 km-lik yolun texniki-iqtisadi əsaslandırmasına belə başlamayıb.

Əlbəttə, biz Ermənistanı öhdəliklərini yerinə yetirməyə məcbur edə bilmərik və bu dəhlizi (Zəngəzur dəhlizi - red.) güc və ya bu kimi üsullarla açmaq üçün oranı işğal edəcəyimizi söyləmək cəfəngiyyatdır. Beləliklə, biz İran vasitəsilə dəmir yolu və avtomobil yolu ilə əlaqə qurmaq üçün B planı olaraq İrana müraciət etdik”.

***Ağarza Elçinoğlu***

# Laçın şəhərində xalçaçılıq mərkəzi açıldı

***Laçın şəhərində “İslimi” Xalçaçılıq mərkəzi açılıb.***



“Unikal” xəbər verir ki, bu mərkəz Laçının hələ qədimdən məhşur xalçalarının olduğu nəzərə alınaraq yaradılıb. Burada Laçın çeşnilərini özündə əks erdirən xalçaların ərsəyə gətirilməsi ilə yanaşı, həm də sakinlərin məşğulluğu təmin olunacaq.

Açılış mərasimində Azərbaycan Respublikası Prezidentinin Laçın rayonu üzrə xüsusi nümayəndəsi Məsim Məmmədov, “Bakı Abadlıq Xidməti” MMC-nin, “Laçın Abadlıq Xidməti” ASC-nin və digər qurumların əməkdaşları iştirak ediblər.

Mərasim iştirakçıları mərkəzdə yaradılan şəraitlə tanış olublar.

UNI-46_27 IYUI-QARA.qxd 12/28/2023 9:43 PM Page 9



# İstehlakçıların hüquqlarını pozan vəzifəlilər cərimələndi




***Baş Prokurorluq tərəfindən qida təhlükəsizliyi sahəsində əhalinin həyat və sağlamlığının qorunması, habelə istehlakçıların hüquqlarının müdafiəsi məqsədilə aidiyyəti dövlət qurumları ilə birgə ardıcıl və sistemli tədbirlər həyata keçirilir.***

Baş Prokurorluğun mətbuat xidmətindən "Unikal"a verilən məlumata görə, qurumun Cinayət təqibindən kənar icraatlar idarəsində istifadəyə yararsız kartof, bibər və digər yeyinti məhsullarının, habelə spirtli içkilərin satışı zamanı baş verən qanun pozuntuları barədə daxil olmuş müraciətlər əsasında araşdırma aparılıb.

Araşdırmalar zamanı 2 hüquqi şəxs və onların vəzifəli şəxsi - "Azvitamin" MMC və onun vəzifəli şəxsi Orxan Səfərov, "AGR Group" MMC və onun vəzifəli şəxsi Gülnarə Abdullayeva, sahibkarlıq fəaliyyəti ilə məşğul olan 4 vəzifəli şəxs - Şəmistan Əsgərov, Ceyhun İsmayılov, Əhliman Məcidov, Elşad Məmmədov, həmçinin 2 fiziki şəxs Elşən Bayramov və Heydər Bayramovun saxlama müddəti ötmüş məhsulların satılmasına və qanunvericiliyə əsasən məcburi sertifikatlaşdırılmalı olan, lakin sertifikatlaşdırılmamış malların satılması müəyyən edildiyindən barələrində İnzibati Xətalar Məcəlləsinin 447.0.1 və 447.0.4-cü maddələri ilə inzibati xəta haqqında iş üzrə icraatın başlanması barədə qərar qəbul olunub.

Qeyd olunan inzibati xəta haqqında iş üzrə icraatlara Bakı şəhərinin Xəzər və Səbail rayon məhkəmələri, həmçinin Qida Təhlükəsizliyi Agentliyi tərəfindən baxılaraq, fiziki, vəzifəli və hüquqi şəxslər ümumilikdə 20 min manat məbləğində inzibati qaydada cərimə edilib.

# Siqaret və alkoqollu içkilərin aksiz dərəcəsi artırıldı




***Siqaret və alkoqollu içkilərin aksiz dərəcəsi artırılıb.***

"Unikal" xəbər verir ki, bu, Prezident İlham Əliyevin tətbiqi barədə fərman imzaladığı Vergi Məcəlləsinə dəyişiklikdə əksini tapıb.

Qanuna əsasən, gələn il yanvarın 1-dən aksiz dərəcəsi siqarillanın (nazik siqarlar) hər 1000 ədədi üçün 43 manatdan 45,5 manata, tütündən hazırlanan siqaretlər və onların əvəzedicilərinin hər 1000 ədədi üçün 38,5 min manatdan 45,5 manata yüksəldilir.

Hazırda aksiz dərəcəsi qızdırılma nəticəsində istehlak edilən (buxar) tütün və tütün məhsullarının hər 1000 ədədi üçün 14,0 manatdırsa, qanuna görə, alışdırılmadan nəfəsə çəkmək üçün nəzərdə tutulmuş tərkibində və ya bərpa edilmiş tütün olan məhsulların hər 1000 ədədi üçün 16 manat olacaq.

Birdəfəlik istifadə üçün elektron siqaret, qəlyan və onların əvəzedicilərinin hər bir ədədi üçün aksiz dərəcəsi isə 0,25 manatdan 2 manata qaldırılır.

Aksiz dərəcəsi içməli spirt (o cümlədən tərkibində 80 faizdən az spirt olmayan denaturlaşdırılmamış etil spirti, tərkibində 80 faizdən az spirt olan denaturlaşdırılmamış etil spirti), araq (vodka), tündləşdirilmiş içkilər və tündləşdirilmiş içki materialları, likyor və likyor məmulatları, konyak və konyak materiallarının hər litri üçün 4,0 manatdan 4,8 manata qaldırılıb.

Şampan şərabı üçün aksiz dərəcəsi isə azaldılaraq 2,6 manatdan 0,2 manata endirilib.

# Regionlarda hotellərə 3 il vergi güzəşti olacaq



***Gələn ildən regional turizmin inkişaf etdirilməsi və onların sabit vergi xərclərinin azaldılması məqsədilə turizm subyektlərinə (mehmanxana, hotel və sanatoriya) vergi təşviqləri veriləcək.***

"Unikal" xəbər verir ki, bu, Prezident İlham Əliyevin tətbiqi barədə fərman imzaladığı Vergi Məcəlləsinə dəyişiklikdə əksini tapıb.

Qanuna əsasən, Bakı, Sumqayıt, Xırdalan şəhərləri və Abşeron rayonu istisna olmaqla, respublikanın digər şəhər və rayonlarında mehmanxana (hotel) və sanatoriya fəaliyyətlərində istifadə edilən (Vergi Məcəlləsinin 16.3-cü maddəsinə müvafiq olaraq sahibkarlıq fəaliyyətinin müvəqqəti dayandırıldığı hallar istisna olmaqla) daşınmaz əmlaklara görə əmlak vergisi 2024-cü il yanvarın 1-dən 3 il müddətinə 75 faiz azaldılacaq.

# Əbülfəs Qarayevlə Anar Kərimovun göz yumduğu yüzminlərlə manatlıq növbəti talan

## Dövlət Pantomima Teatrındakı külli miqdarda yeyintinin pərdəarxasında nələr var?



***Yola salmaq üzrə olduğumuz həftə aydınlaşdı ki, Azərbaycan Dövlət Pantomima Teatrının kadrlar idarəsinin mütəxəssisi Aytən Kərimova cinayət məsuliyyətinə cəlb edilib. Onun külli miqdarda mənimsəmədə təqsirləndirildiyi və istintaqının yekunlaşdığı açıqlanıb.***

Bu barədə Mədəniyyət Nazirliyindən yayılan rəsmi məlumatda bildirilib ki, Azərbaycan Dövlət Pantomima Teatrında 2019-cu ildən mühasib vəzifəsində çalışmış Kərimova Aytən Ceyhun qızı 2023-cü ilin yanvar ayında işində yol verdiyi ciddi nöqsanlara görə tutduğu vəzifədən azad edilib.

Azərbaycan Respublikasının Baş Prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində onun barəsində Cinayət Məcəlləsinin 179.3.2, 308.2 və 313-cü maddələri ilə cinayət işi başlanılıb. İstintaq tamamlanıb və baxılması üçün Bakı Ağır Cinayətlər Məhkəməsinə göndərilib.

Məlum olub ki, Aytən Kərimova mühasib vəzifəsini icra etdiyi müddətdə həmin teatrda müxtəlif vasitələrlə ümumilikdə 332 000 manat məbləğində pul vəsaitini mənimsəyib. Bununla da Mədəniyyət Nazirliyinin əmlakının qorunub saxlanılması və maliyyə vəsaitlərindən qənaətlə, fəaliyyətə uyğun istifadəsinə və nazirliyin qanunla qorunan mənafelərinə mühüm zərər vurulub.

Qeyd edək ki, Aytən Kərimova 2019-2022-ci illərdə bu vəzifədə çalışıb.

Onu da deyək ki, həmin dövrdə mədəniyyət naziri postunu Əbülfəs Qarayevlə (2018-2020; xatırlatma: 2006-2028-ci illərdə mədəniyyət və turizm naziri) Anar Kərimov (2020-2021-ci illərdə mədəniyyət nazirinin birinci müavini - nazir vəzifələrini müvəqqəti icra edən; 2021-2022-ci illərdə nazir) tutub. Qarayevlə Kərimovun dövründə Mədəniyyət Nazirliyi faktiki olaraq rüşvət və korrupsiya bataqlığına sürüklənib. Nəticədə iki il ərzində Dövlət Təhlükəsizliyi Xidməti (DTX) bu qurumda iki dəfə anti-korrupsiya əməliyyatı keçirməli olub.

20220-ci ildə, Qarayev nazir olarkən keçirilən əməliyyatda da, 2022-ci ildə A.Kərimov nazir olduğu vaxt keçirilən əməliyyatda da ciddi yeyinti faktları aşkarlanıb, nazirliyin yüksək çinli şəxsləri saxlanılıb. Adları çəkilən nazirlər isə vəzifələrindən uzaqlaşdırılıblar.

Lakin Azərbaycan Dövlət Pantomima Teatrının kadrlar idarəsinin mütəxəssisi Aytən Kərimovanın cinayət məsuliyyətinə cəlb edilməsi faktı belə deməyə əsas verir ki, hər iki eks-nazirin vəzifədə olduğu illərə aid mənimsəmə cinayətləri ilə bağlı bizim bilmədiyimiz başqa nümunələr də var. Sözügedən teatrdakı yeyinti barədə iki sual xüsusilə cavaba möhtacdır.

Əvvəla, Mədəniyyət Nazirliyi teatrlarda mütəmadi yoxlamalar, təftişlər aparır. Bəs necə olub ki, həm Əbülfəs Qarayev, həm də Anar Kərimovun zamanında Dövlət Pantomima Teatrındakı korrupsiya əməlləri ortaya çıxmayıb, daha dəqiq desək, ortaya çıxarılmayıb? Bunda kimin, yaxud kimlərin hansı maraqları olub?

İkincisi, cinayət məsuliyyətinə cəlb edildiyi deyilən Aytən Kərimova Dövlət Pantomima Teatrının kadrlar idarəsinin mühasibidir. Yəni elə də yüksək vəzifə sahibi sayılmır, daha doğrusu, həlledici post sahibi deyil. Belədə o, 3 il boyunca 332 min manat məbləğində mənimsəməni necə həyata keçirib? Özü də ən azından çalışdığı idarənin rəisindən xəbərsiz?! Bu mümkündürmü? Ola bilsin, mümkündür. Lakin ağlabatandırmı? Bu sualın cavabını oxucuların ixtiyarına buraxırıq.

Hərçənd, Dövlət Pantomima Teatrının aktyoru və direktoru Elman Rəfiyev 332 min manatlıq yeyinti ilə bağlı valyuta.az-a açıqlamasında bildirib ki, teatrda yeyinti faktlarının olmasından şübhələnib və bunun nə dərəcədə real olub-olmamasını araşdırmaq üçün Mədəniyyət Nazirliyinə yazılı şəkildə müraciət edib: "Məktub yazdım, dedim ki, gəlin buranı yoxlayın. Nazirlik audit yoxlama apardı və oradan iş birbaşa korrupsiyaya keçdi. Bütün bunları edən qadındır, 30 yaşı var. Biz hazırda oturub gözləyirik ki, son nəticə nə olacaq".

Hər halda bir daha aydın olur ki, Mədəniyyət Nazirliyi kimi bir qurum Əbülfəs Qarayevlə Anar Kərimovun yarıtmaz fəaliyyəti ucbatından ən azı öz adının ifadə etdiyi anlama zidd olaraq, kimlər üçünsə maddiyyat, qanunsuz qazanc funksiyasını yerinə yetirib. Ölkənin mədəniyyət, incəsənət, tarix və mədəniyyət abidələrinin qorunması, nəşriyyat və kinematoqrafiya sahələrində dövlət siyasətini və tənzimləməsini həyata keçirməli olan bu mərkəzi icra hakimiyyəti orqanı illər uzunu korrupsiyanın, rüşvətxorluğun girovuna çevrilib. Olduqca tükürpədici, elə bir o qədər də ürəkağrıdan faktdır.

Adamın ürəyini ağrıdan həm də odur ki, bütün bu cinayətlərə ya "yaşıl işıq" yandıran, ya da göz yuman sabiq nazirlər hüquqi məsuliyyətdən kənarda qalmağı hər hansı formada bacardılar. Halbuki mədəniyyətə belə korrupsiya, rüşvət, yeyinti bulaşdırmasına imkan verənlər, zəmin hazırlayanlar hətta ortaya çıxan qanunsuz əməllərdən xəbərsiz olsalar belə, bu əməllərə birbaşa qol qoyanlar qədər günahkar sayılmalıdırlar!

***Sənan Mirzə***

# Bakının məşhur özəl klinikaları borc bataqlığında

## Həftənin sualı: müayinə və müalicə xərcləri kəlləçarxda olduğu bir vaxtda külli miqdarda borclar necə yaranır?

***Bakıda fəaliyyət göstərən bir sıra özəl klinikaların İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinə vergi borcu yaranıb.***

Qaynarinfo-nun məlumatına görə, qanuni təmsilçisi Sərdar Seyidov Ağamir oğlu olan, Çobanzadə küçəsi 24/05 ünvanında yerləşən "Nigar" klinikasının Bakı şəhəri Lokal Gəlirlər Baş İdarəsinə 51236.77 manat vergi borcu var. Klinikanın təsisçisi ixtisasca həkim olan iş adamı Şahbaz Şahbazovdur.

kassa qəbzi verilmir. Yəni üzərində VÖEN olmayan qəbz verilir. Nəticədə özəl klinikalar böyük məbləğdə vergidən yayınırlar. Dövlət xəstəxanalarının iflic olduğu vəziyyətdə özəl klinikalara gedənlərin sayı çoxdur. Tələb təklifi üstələyəndə qiymət artır və keyfiyyətsiz xidmət meydana çıxır. Dövlət və özəl xəstəxanalarında ümumilikdə təxminən 20 minə qədər avadanlıq var. Həmin avadanlıqların 6 aydan bir düzgün işləyib-işləməməsinin müəyyənləşdirilməsi la-

çox hallarda vergi öhdəliklərinin düzgün şəkildə yerinə yetirilməməsi ilə nəticələnir. Misal üçün, Vergilər Nazirliyi 5 il öncə yoxladığı tibb müəssisələri üzrə 230 milyon manatdan çox dövriyyənin dövlət büdcəsindən gizlədildiyini müəyyən edib. Nəzərə alsaq ki, bu rəqəm yalnız yoxlama aparılan müəssisələr tərəfindən gizlədilən dövriyyədir, o zaman səhiyyə sahəsi üzrə kölgə iqtisadiyyatının ümumi həcmi bundan qat-qat çoxdur. Səhiyyə sahəsi üzrə



Həmçinin digər tanınmış klinikaların da Dövlət Vergi Xidmətinə borcu var:

Bu klinikalar və onların borcları aşağıdakı kimidir:

*"Hi-fi Stomatologi Klinika" MMC - 19617.89 manat

*"Loğman Klinikası" MMC - 2628.48 manat

*"Hind Klinikası" MMC - 5641.44 manat

*Tibb Universitetinin Tədris Stomatoloji Klinikası - 6524.04 manat

*"El Amor Estetik Klinika" MMC - 2230.80 manat

* "Lb Clinic" MMC - 6513.13 manat

*"Modern Clinic Chen" MMC - 1692.87 manat

*"Caspian Medical"MMC - 7484.37 manat

Maraqlıdır ki, Azərbaycanda özəl tibb müəssisələrində müayinə və müalicə xərcləri fantastik rəqəmlərlə müşayiət olunur. Belədə onların vergi borclarının necə yarandığı təəccüb doğurmaya bilməz.

Üstəlik, 2 il öncə qiymətləri qaldıran özəl klinikaların vergidən yayındığı iddiası gündəmə gəlmişdi. Belə ki, Azad İstehlakçılar Birliyinin (AİB) rəhbəri Eyyub Hüseynov bildirmişdi ki, sədri olduğu quruma gələn şikayətlərin analizi belə deməyə əsas yaradır. Sitat: "Özəl klinikaların 90 faizində istehlakçılardan alınan pulun müqabilində normal zımdır. Bu iş yerinə yetirilmir və yaxud saxta yerinə yetirilir. Bəhs etdiyimiz məqam istehlakçıların həyatını risk altına qoyan amildir".

Ekspertin söylədikləri təəccüblü deyil. Məsələn, 2018-ci ildə özəl klinikalarda külli-miqdarda vergidən yayınma halları ilə bağlı Vergilər Nazirliyi (sonradan ləğv edilib) rəsmi açıqlama yaymışdı. Məlum olmuşdu ki, həmin ilin 9 ayı ərzində ölkədəki 22 özəl klinika 231 milyon manat vergidən yayınıb. Əməkhaqqı üzrə ödəmələrin yayındırılması halları qeydə alınmış, 22 vergi ödəyicisi üzrə 2018-ci ilin 9 ayında bəyannamələrdəki məbləğlərin real göstəricilərə nisbətən 7.6 dəfə az əks olunduğu müəyyən edilmişdir. Bəzi özəl tibb müəssisələrinin rəsmi sənədlərində həkimlərə verilən aylıq əməkhaqqı məbləği 130-490 manat göstərilməsinə baxmayaraq, bu məbləğin bir sıra hallarda on minlərlə manat arası olduğu təsdiqini tapıb.

Rəsmi statistikaya əsasən, ölkədə fəaliyyət göstərən özəl tibb müəssisələrinin sayı 500-dən çoxdur. Bu müəssisələrdə fəaliyyət göstərən tibbi personalın sayı isə 10000-ə yaxındır. Bir neçə il əvvəl aydınlaşmışdı ki, mövcud vəziyyətə əsasən, bir çox həkim eyni zamanda bir neçə klinikada qeyri-rəsmi olaraq fəaliyyət göstərir. Bu isə, bir kölgə iqtisadiyyatının mövcudluğunu şərtləndirən əsas amillər tibbi xidmətlərə görə ödənişlərin nağd şəkildə əldə edilməsi və həkimlərin qeyri-rəsmi olaraq eyni zamanda bir neçə klinikada fəaliyyət göstərməsidir. Bu isə eyni zamanda, dövlət büdcəsinə daxil olmalı olan vergilərin azalmasına gətirib çıxarmaqla yanaşı, əhalinin gəlir səviyyəsinin düzgün müəyyən edilməsi məsələsində də çətinliklər törədir.

Bütün bu deyilənləri ümumiləşdirəndə real mənzərə bir az da aydınlaşır: belə məlum olur ki:

1. Özəl klinikalarda müayinə və müalicə xərcləri kifayət qədər yüksəkdir, rəqəmlər orta statistik azərbaycanlının cibinə uyğun deyil, bir çox hallarda hətta inkişaf etmiş ölkələrdəki rəqəmlərlə "yarışmaq" iqtidarındadır;

2. Özəl klinikalarda vergidən yayınma halları adiləşib, bunun üçün bir çox yollardan istifadə edilir.

Bu iki önəmli məqamı nəzərə aldıqda bir sıra özəl tibb müəssisələrinin borc içində olmasını anlamaq mümkün deyil. Həmin borcun niyə yarandığını aidiyyatı dövlət qurumlarının dərindən, hərtərəfli araşdırmasına ehtiyac var...

*Sənan Mirzə*

# Orqan transplantasiyası üçün vəsait toplanan şəxslərlə bağlı açıqlama



***İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi sosial şəbəkələrdə Kamran Abdıyev və Xəqani Niftalıyev adlı vətəndaşlara orqan köçürülməsi məqsədilə vəsaitin toplanması xəbəri ilə bağlı açıqlama yayıb.***

"Unikal" xəbər verir ki, açıqlamada qeyd olunur ki, 19 dekabr tarixində Orqan Donorluğu və Transplantasiyası üzrə Koordinasiya Mərkəzi tərəfindən Agentliyə Kamran Abdıyevin böyrək transplantasiyasına ehtiyac olmasına dair məktub ünvanlanıb. Hazırda vətəndaş əməliyyatönü müayinələrə cəlb olunub, donor olmaq istəyən vətəndaşın donor uyğunluğu qiymətləndirilir. Uyğun olduğu təqdirdə böyrək transplantasiyası əməliyyatı icbari tibbi sığorta hesabına icra olunacaq.

Qaraciyər transplantasiyası əməliyyatına ehtiyacı olan Xəqani Niftalıyevin isə canlı donoru olmadığı üçün əməliyyatın icrası hazırda mümkün deyil. Donor olduğu təqdirdə sözügedən əməliyyat icbari tibbi sığorta çərçivəsində tam qarşılanacaq.

Qeyd edək, orqan və toxumaların köçürülməsi zamanı iki subyekt əsas götürülür: Donor və resipiyent. Donor- öz orqan və ya toxumalarını xəstə şəxsə köçürmək üçün könüllü olaraq verən şəxsdir. Resipiyent - müalicə məqsədi ilə orqan və ya toxumalar köçürülən (qəbul edən) şəxs hesab edilir. Transplantasiya üçün bir canlı donorun da əməliyyata hazırlanması və əməliyyatı icbari tibbi sığorta ilə ödənişsizdir.

Orqan transplantasiyasına ehtiyacı olan vətəndaş sənədləri ilə bir yerdə Orqan Donorluğu və Transplantasiyası üzrə Koordinasiya Mərkəzinə birbaşa müraciət etməlidir. Koordinasiya Mərkəzi Bakı Sağlamlıq Mərkəzində yerləşir. Koordinasiya Mərkəzinin nümayəndəsi pasiyentin (əvvəlki tibbi müayinə nəticələrini) sənədləri ilə tanış olur. Bu sənədlər klinik, laborator və instrumental müayinələrin nəticələri və müvafiq ixtisas üzrə həkim-mütəxəssislərin rəyləri daxil olmaqla, müalicə aldığı tibb müəssisəsindəki xəstəlik tarixindən çıxarış (epikriz) ola bilər. Resipiyentə tibbi baxış keçirilərkən, əlavə müayinələrin aparılması barədə qərar qəbul edilə bilər.

18 yaşına çatmış birinci dərəcəli qohumu donor olmağa razıdırsa pasiyent müvafiq lisenziyası olan tibb müəssisələrindən birinə yönləndirilir. Həmin xəstəxanada transplantasiya üzrə Komissiya üzvləri əməliyyatın zəruriliyi barədə rəy verir. Bu qərar Orqan Donorluğu və Transplantasiyası üzrə Koordinasiya Mərkəzinə göndərilir. Bundan sonra Mərkəz transplantasiya əməliyyatının hazırlıq prosesinə başlamaq üçün icazə verir.

Ayrı-ayrı şəxslərin sağlamlığı ilə bağlı problemlərin həlli məqsədi ilə vəsaitin toplanılmasına dair müraciətlərlə qarşılaşdıqda məsələnin araşdırılması məqsədilə İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinə məlumat verməyinizi rica edirik. Vətəndaşlar Agentliyin "1542" Çağrı mərkəzi, qurumun rəsmi internet səhifəsi üzərindən "Zəng sifariş et" və "Elektron müraciət" bölmələri, eləcə də info@its.gov.az elektron poçt ünvanı vasitəsilə müraciət edə bilərlər.

# Bayram günlərində banklar və "Azərpoçt" işləyəcək

**31 dekabr - 6 yanvar qeyri-iş günlərində ölkədəki bankların filial və şöbələri, eləcə də Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinə məxsus "Azərpoçt" MMC-nin şöbələri və valyuta mübadilə məntəqələri fəaliyyət göstərəcəklər.**

"Unikal" Azərbaycan Mərkəzi Bankına istinadən xəbər verir ki, bayram günlərində ölkəmizdə səfərdə olan turistlərin və ölkə vətəndaşlarının valyuta mübadiləsi xidmətlərinə davamlı çıxış imkanlarının təmin edilməsi məqsədilə ümumilikdə 14 bankın 101 satış nöqtəsi (o cümlədən, 3 bank üzrə 7 satış nöqtəsi 24 saat rejimində olmaqla), "Azərpoçt"un 74 şöbəsi, valyuta mübadiləsinə lisenziya almış 5 valyuta mübadiləsi məntəqəsi (o cümlədən, 1-i 24 saat rejimində olmaqla) müştərilərə xidmət göstərəcək.

Bayram günlərində fəaliyyət göstərəcək bankların filial və şöbələrinin, "Azərpoçt"un satış nöqtələrinin və valyuta mübadiləsi məntəqələrinin iş qrafiki ilə aşağıdakı linklər vasitəsilə tanış olmaq mümkündür:

<https://uploads.cbar.az/press-releases/f7b4a989136a7fd43f454d983.pdf>

<https://uploads.cbar.az/press-releases/d70bbd7910741158cd26ab1d1.pdf>

<https://uploads.cbar.az/press-releases/f535af838fa85bd71c2b988d9.pdf>

UNI-46_27 IYUI-QARA.qxd 12/28/2023 9:43 PM Page 11





# Vərəsəlik hüququ ilə bağlı bu tələblər ləğv edildi

***Mülki Məcəllənin vərəsəlik hüququ üçün xüsusi qəbul şərtini və müddətini müəyyən edən maddələri ləğv olunub.***

Bu barədə "Unikal"a Konsitutisiya Məhkəməsindən məlumat verilib. Bildirilib ki, Fərhad Abdullayevin sədrliyi ilə keçirilən Konstitusiya Məhkəməsi Plenumunun növbəti iclasında Ali Məhkəmənin sorğusu əsasında Mülki Məcəllənin 1246 və 1273-1-ci maddələrinin Konstitusiyanın 29-cu maddəsinin VII hissəsinə uyğunluğunun yoxlanılmasına dair konstitusiya işinə baxılıb.

Konstitusiya Məhkəməsinin Plenumu iş üzrə hakim C.Qaracayevin məruzəsini, maraqlı subyektlər Ali Məhkəmənin və Milli Məclis Aparatının mülahizələrini, Bakı Apellyasiya Məhkəməsinin, Sumqayıt Apellyasiya Məhkəməsinin,Vəkillər Kollegiyasının və Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzinin mütəxəssis mülahizələrini, ekspert Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin Mülki hüquq kafedrasının dosenti, hüquq üzrə fəlsəfə doktoru S.Süleymanlının, Martin Lüter adına Halle-Vittenberq Universitetinin Beynəlxalq iqtisadi hüquq və müqayisəli hüquq üzrə professoru A.Əliyev və Azərbaycan Diplomatik Akademiyasının və Martin Lüter adına Halle-Vittenberq Universitetinin birgə doktorantura layihəsi çərçivəsində doktorantı N.Rəsulzadənin rəylərini və iş materiallarını araşdırıb müzakirə edərək, qərar qəbul edib.

Qərarda deyilir ki, Mülki Məcəllənin vərəsəlik hüququ üçün xüsusi qəbul şərtini və müddətini müəyyən edən 1246 və 1273-1-ci maddələri mütənasiblik konstitusiya prinsipinə və Konstitusiyasının 29-cu maddəsinin VII hissəsində təsbit olunmuş vərəsəlik hüququnun təminatına və bu Qərarın təsviri-əsaslandırıcı hissəsində əks olunmuş hüquqi mövqelərə uyğun olmadığından qüvvədən düşmüş hesab edilib.

Məcəllənin mirasın qəbulu institutunun tələblərindən irəli gələn hüquqi tənzimləmələrin bu Qərarın təsviri-əsaslandırıcı hissəsində əks olunmuş hüquqi mövqelər nəzərə alınmaqla təkmilləşdirilməsi Milli Məclisə tövsiyə edilib.

Mülki dövriyyənin sabitliyinin təmin olunması baxımından bu Qərar qüvvəyə mindikdən sonra yaranacaq vərəsəlik münasibətlərinə və hazırda məhkəmələrin icraatında olan mübahisələr üzrə işlərə şamil edilsin.

Qərar dərc edildiyi gündən qüvvəyə minir, qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv oluna, dəyişdirilə, yaxud rəsmi təfsir edilə bilməz.

Qeyd edək ki, Mülki Məcəllənin 1246-cı maddəsinə (Mirasın qəbul edildiyi müddət) əsasən, vərəsə vərəsəliyə çağırıldığını bildiyi və ya bilməli olduğu gündən üç ay ərzində mirası qəbul edə bilər. Miras açıldığı gündən altı ay keçdikdən sonra mirasın qəbuluna yol verilmir.

Məcəllənin 1273-1-ci maddəsində (Vərəsənin susması) isə qeyd edilib ki, vərəsə bu Məcəllə ilə müəyyən edilmiş müddətlər daxilində mirası qəbul etmədikdə və ya ondan imtina etmədikdə, müvafiq olaraq bu Məcəllənin 1262-ci və 1263-cü maddələri tətbiq edilir.

Konstitusiyanın 29-cu maddəsi (Mülkiyyət hüququ) aşağıdakı kimidir:

I. Hər kəsin mülkiyyət hüququ vardır.

II. Mülkiyyətin heç bir növünə üstünlük verilmir. Mülkiyyət hüququ, o cümlədən xüsusi mülkiyyət hüququ qanunla qorunur.

III. Hər kəsin mülkiyyətində daşınar və daşınmaz əmlak ola bilər. Mülkiyyət hüququ mülkiyyətçinin təkbaşına və ya başqaları ilə birlikdə əmlaka sahib olmaq, əmlakdan istifadə etmək və onun barəsində sərəncam vermək hüquqlarından ibarətdir.

IV. Heç kəs məhkəmənin qərarı olmadan mülkiyyətindən məhrum edilə bilməz. Əmlakın tam müsadirəsinə yol verilmir. Dövlət ehtiyacları və ya ictimai ehtiyaclar üçün mülkiyyətin özgəninkiləşdirilməsinə yalnız qabaqcadan onun dəyərini ədalətli ödəmək şərti ilə yol verilə bilər.

V. Xüsusi mülkiyyət sosial öhdəliklərə səbəb olur.

VI. Sosial ədalət və torpaqlardan səmərəli istifadə məqsədi ilə torpaq üzərində mülkiyyət hüququ qanunla məhdudlaşdırıla bilər.

VII. Dövlət vərəsəlik hüququna təminat verir.

# Sabiq məmurun özü və oğlunun da adı keçən cinayət işi ilə bağlı gizlinlər

## Bakıdakı 100-dən çox insanın qurbana çevrildiyi dələduzluq - Kimdir haqlı: zərərçəkmişlər, yoxsa...

***Bakıda dələduzluqda təqsirləndirilən "Konstra" MTK-nin təsisçisi Bəsrət Abbaslı, şirkətin direktoru Dilafir Rəsulov və əməkdaşları - Bəsrət Abbaslı ilə Tahir Əliyevə hökm oxunub. Bu barədə hökm Bakı Ağır Cinayətlər Məhkəməsinin hakimi Zeynal Ağayevin sədrliyi ilə keçirilən prosesdə elan edilib. Hökmə əsasən Dilafir Rəsulov 13 il 6 ay, Tahir Əliyev 13 il, Bəsirət Abbaslı isə 1 il 6 ay müddətinə azadlıqdan məhrum ediliblər.***



Qeyd edək ki, B.Abbaslı Hesablama Palatasının Dövlət investisiyalarının auditi şöbəsinin sabiq müdiri Bəhram Abbaslının oğludur.

Məlumata görə, D.Rəsulov "Konstra" MTK-nin direktor vəzifəsində işləyərkən satış hüquqları olmadığı halda vəzifə səlahiyyətlərindən sui-istifadə edib rəsmi sənədlərə bilə-bilə yalan məlumatlar daxil etməklə mənzilləri ayrı-ayrı şəxslərə qanunsuz sataraq əldə edilmiş pul vəsaitini dələduzluq yolu ilə ələ keçirməsinə dair əsaslı şübhələr müəyyən edilib.

Bununla bağlı, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində barəsində Cinayət Məcəlləsinin 178.4 (dələduzluq xüsusilə külli miqdarda ziyan vurmaqla törədildikdə), 308.2 (vəzifə səlahiyyətlərindən sui-istifadə ağır nəticələrə səbəb olduqda )və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb olunması haqqında qərar qəbul edilməklə cinayət təqibi orqanından gizləndiyinə görə beynəlxalq axtarış elan edilib.

2021-ci ilin aprel ayında D.Rəsulovun Rusiyanın Tula şəhərində olması müəyyən edilib. Daha sonra o, Daxili İşlər Nazirliyinin xüsusi konvoyunun müşayiəti ilə ölkəmizə gətirilib.

Cinayət işində 100-dən çox zərərçəkmiş var.

Təqsirləndirilənlər arasında sabiq məmur Bəhram Abbaslının çox az həbs cəzası (1 il 6 ay) almasının ardından bir müddət öncə səsləndirilən bəzi iddialar yenidən gündəmə gəlib. Belə ki, zərərçəkmiş şəxs qismində tanınan çoxsaylı şəxslərdən olan Emin Məmmədov və Fuad Qarayev "Qafqazinfo"ya bildirmişdilər ki, Bəsrət Abbaslı Nərimanov rayonu M.Sənani küçəsi 13/15 ünvanında tikilən 3 girişli 21 mərtəbəli bina üzrə podratçı şirkətin rəsmi şəkildə rəhbəri olsa, bütün müqavilələr onun adından və möhürü ilə imzalansa da, ona yüngül maddə ilə ittiham verilib. Sitat: "Belə ki, ibtidai istintaq Bəsrət Abbaslının barəsindəki dələduzluq ittihamını aradan qaldırıb. Buna baxmayaraq onun və ailəsinin 5 milyon manatlıq əmlakının üzərinə həbs qoyulub. Bəsrət Abbaslının ittiham edildiyi 308.1-ci (Vəzifə səlahiyyətlərindən sui-istifadə) maddəsi üzrə veriləcək hökm isə hər hansı müsadirəni nəzərdə tutmur. Bu səbəbdən də iş üzrə zərərçəkmiş qismində tanınan xeyli insan istintaqın gəldiyi nəticə və məhkəmənin gedişatına etiraz edir. Biz zərərçəkmişlər Bəsrət Abbaslının və atasının həyata keçirdiyi tikinti işləri və satışla əlaqədar üzləşdiyimiz dələduzluq əməllərinə görə onların məsuliyyətdən kənar qalmasını başa düşmürük".

O da maraqlıdır ki, şahid qismində ifadə verən Vəsilə Məhərrəmova, Vüqar Cavadov və digərləri binadakı hər hansı obyekt və ya mənzilin MTK-nın rəsmi rəhbəri olan Bəsrət Abbaslının atası Bəhramdan xəbərsiz satılmasının mümkün olmadığını bildiriblər.

V.Məhərrəmova bildirib ki, "Konstra" MMC yarandığı gündən Bəhram Abbasov oraya gəlib: "Bəhram Abbasov satışa və yığılan pullara nəzarət edirdi, hər gün yığılan pullar ona təhvil verilib".

Təqsirləndirilən şəxslərdən Dilafir Rəsulov da bütün işlərə Bəhram Abbasovun nəzarət etdiyini deyib: "Tikinti materialları onun icazəsi ilə alınıb, onun tapşırığı ilə mənzillər satılıb, pullar qəpiyinə kimi, Bəhram Abbasova verilib. Tahir Əliyev çox vaxt xaricdə olub, heç kimlə danışıqlar aparmayıb, ev satmayıb və və götürməyib".

Sabiq məmur isə özü və oğlu ilə bağlı iddialara, zərərçəkmişlərin ittihamlarına səssiz qalıb. Sonda məhkəmə qərarı ilə onun oğlu digər təqsirləndirilənlərlə müqayisədə qatbaqat yüngül cəza alıb.

Qeyd edək ki, "Konstra MMC" şirkəti ilə əlaqədar uzun müddətdir narazılıqlar var. Məsələ ilə bağlı bir müddət öncə açıqlama verən Bəsrət Abbaslı bildirmişdi ki, atası Bəhram Abbasovun qanuni olaraq şirkətə aidiyyəti yoxdur. Onun sözlərin görə, sadəcə cavan olduğu üçün əksər görüşlərə atasını da aparırmış...

Məhkəmə bitsə də, belə görünür, bir sualın cavabı açıq qalıb - baş verən nəhəng dələduzluğun əsas səbəbkarları məsələsində haqlı kimdir: daha çox ata-oğul Abbaslıları ittiham edən zərərçəkmişlər, yoxsa bu ittihamlarla razılaşmayan sabiq məmur və övladı?!

***Toğrul Əliyev***

## 5.3.18. gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Ağsaqqal və ağbirçəyin nəsihəti məişət zorakılığı hesab olunacaq?

### Tural Hüseynzadə: "Qanunda "yaxın" anlayışının çıxardılmasında məqsəd odur ki, daxil olan müraciətlərə görə, qaynana, baldız, qayın və yaxud həyat yoldaşının, zorakılıq törədənin yaxın olmayan qohumları əvvəl məişət zorakılığının təsir dairəsinə düşmürdü"

***Azərbaycanın ailə modeli hər zaman örnək göstərilir. Azərbaycan ailələrinin uzunömürlük ənənəsinin arxasında milli dəyərlərimiz, ailəyə sədaqət, sevgi, qarşılıqlı hörmət və sair amillər dayanır. Amma son illər qlobal dünyanın dəyişən dəyərlər sistemi Azərbaycan ailələrindən də yan keçməyib.***




İllər öncə müqəddəs sayılan ailə dəyərlərimiz tədricən deqredasiyaya uğrayır. Artıq ölkəmizdə də təəssüf ki, qurulan ailələrin dağılması faktları artır. İllər öncə valideynlərin bir sözü ailənin dağılmasının qarşısını almaq üçün yetərli sayılırdı. Amma bu günlərdə "Məişət zorakılığının qarşısının alınması haqqında" Qanuna təklif edilən dəyişiklik gələcəkdə qayınana, qayınata kənardan ailəyə müdaxilə edəcəksə, bu, məişət zorakılığı hesab ediləcək. Bu barədə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Hüquqi-təminat şöbəsinin müdiri Taliyə İbrahimova mətbuata açıqlaması zamanı bildirib. O, bildirib ki, "Məişət zorakılığında ərin yaxın qohumlarının qadınlara qarşı zorakılıq faktları müşahidə edilir. Şöbə müdiri diqqətə çatdırıb ki, bu gün boşanmaların əsas səbəblərindən biri ailələrə edilən kənar müdaxilələrdir: "Bəzən dövlət orqanları boşanmaq istəyən tərəfləri barışdırmaq istəsə də, sonda yaxşı effekt vermirdi. Bəzi ərazilərdə hətta səhəri gün qətl hadisələri törədilirdi".

Qayınana, qayınata və digər yaxın qohumların ailəyə müdaxiləsinin məişət zorakılığı sayılması sosial şəbəkələrdə də geniş müzakirəyə səbəb olub. Uzunömürlüyü, dözümlülüyü ilə seçilən Azərbaycan ailələri həm də böyüyə hörmət, böyüklərin nəsihətlərinə əməl edilməsi ilə fərqlənir. Azərbaycan ailələrində qayınata və qayınana valideyn olmaqla yanaşı, ailənin ağbirçəyi və ağsaqqalı hesab olunurlar. Bir çoxları yaxın qohumların gənc ailələrə daim dəstək olmasının, onlara tövsiyələr verməsinin normal hal olduğunu bildirərək qayınana-qayınataların övladlarının ailələrində söz sahibi ola biləcəyini düşünür. Bəzi şəxslər isə ailələrə kənar müdaxilənin yolverilməz olduğunu, bunun sonradan neqativ nəticələrə gətirib çıxardığını deyir. Bəs görəsən bu zaman ailədə böyüklərin fikirləri hansı halda məişət zorakılığı sayılacaq?

Ailə Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Hüquqi Təminat şöbəsinin baş məsləhətçisi Tural Hüseynzadə "Unikal" qəzetinə açıqlamasında bildirib ki, bu məsələ "Məişət zorakılığının qarşısının alınması haqqında" Qanun ilə tənzimlənir. Komitə səlahiyyətlisi bildirib ki, "Məişət zorakılığının qarşısının alınması haqqında" Qanunun hazırda qüvvədə olan yanaşmasında "yaxın qohum" anlayışı məişət zorakılığını törədənlər həyat yoldaşının yaxın qohumları və əvvələr birgə yaşamasından sui istifadə edən digər qohumlar nəzərdə tutulurdu. İndi isə "yaxın" anlayışının çıxardılmasında məqsəd odur ki, daxil olan müraciətlərə görə, qaynana, baldız, qayın və yaxud həyat yoldaşının, zorakılıq törədənin yaxın olmayan qohumları əvvəl məişət zorakılığının təsir dairəsinə düşmürdü.

"Tədqiqatlar da göstərdi ki, bu kimi hallar çoxalıb. Ona görə də qanunun təkmilləşməsinə ehtiyac var. Bu o deməkdir ki, həyat yoldaşının atası, anası, qardaşı, bacısı əgər birgə yaşamırsa onların da törətdikləri zorakılıq məişət zorakılığı sayılacaq. Əvvəl isə bu belə deyildi. Əvvəllər telefonla və yaxud evdə gəlib fiziki zorakılıq etdikdə biz bunları məişət zorakılığı kimi qeydə ala bilmirdik. Amma son dəyişiklikdən sonra bu hallar "Məişət zorakılığının qarşısının alınması haqqında" Qanunun tələblərinə müvafiq olaraq araşdırılacaq" deyə T. Hüseynzadə bildirib.

Komitə səlahiyyətlisi bildirib ki, "Məişət zorakılığının qarşısının alınması haqqında" qanun, yaxın qohumluq münasibətlərindən, birgə və ya əvvəllər birgə yaşayışdan sui istifadə etməklə törədilən zorakılığın, onun doğurduğu mənfi hüquqi, tibbi və sosial nəticələrin qarşısının alınması, məişət zorakılığından zərər çəkmiş şəxslərin sosial müdafiəsi, hüquqi yardımla təmin edilməsi, habelə məişət zorakılığına səbəb olan halların aradan qaldırılması istiqamətində həyata keçirilən tədbirləri müəyyən edir və tənzimləyir. Məişət zorakılığının qarşısının alınması sahəsində əsas prinsiplər hər kəsin Konstitusiyamızda və qanunlarımızda nəzərdə tutulmuş insan hüquq və azadlıqlarının təmin edilməsi, qadınlara qarşı ayrı-seçkiliyin qadağan edilməsi, qanunvericiliklə müəyyən edilmiş hallar və hüdudlar istisna olmaqla hər kəsin şəxsi və ailə həyatına müdaxilənin yolverilməzliyi, şəxsi və ailə həyatı sirrinin qorunması məqsədi ilə konfidensiallığa riayət edilməsi, zərər çəkmiş şəxslərin pozulmuş hüquqlarının bərpası, məişət zorakılığının qarşısının alınması sahəsində dövlət orqanlarının və qeyri-dövlət qurumlarının qarşılıqlı əməkdaşlığını özündə ehtiva edir. Hazırda bu qanun yaxın qohum olan ailə üzvlərinə (ər, arvad, valideynlər, uşaqlar, nənələr, babalar, nəvələr, doğma və ögey qardaşlar və bacılar, övladlığa götürmüş və övladlığa götürülmüş şəxslər), habelə birgə yaşadığı hallarda digər qohumlara, nikah pozulduqdan sonra birgə və ya ayrılıqda yaşayan keçmiş ər-arvada, qəyyum və ya himayəçi təyin olunmuş fiziki şəxslərə, habelə üzərində qəyyumluq və ya himayəçilik təyin edilmiş şəxslərə, qanuni nikahda olmadan birgə yaşayan kişi və qadına, habelə onlarla birgə yaşayan yaxın qohumlarına şamil edilmirdi.

Qeyd edək ki, ötən il Azərbaycanda 51 qadın məişət zorakılığının qurbanı olub. Ondan bir il öncə bu rəqəm 46 olmuşdu.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**



## AMEA-nın səlahiyyətlərindən biri ləğv olundu

***Əsərlər Dövlət Mükafatına dövlət orqanları (qurumları), ali təhsil müəssisələri, elmi müəssisə və təşkilatlar, ictimai birliklər, yaradıcılıq ittifaqları və birlikləri tərəfindən təqdim olunacaq.***

"Unikal"ın xəbərinə görə, bu, Prezident İlham Əliyevin bu gün imzaladığı fərmanla "Azərbaycan Respublikasının Elm, texnika, memarlıq, mədəniyyət və ədəbiyyat üzrə Dövlət Mükafatları Komissiyasının Əsasnaməsində edilən dəyişiklikdə əksini tapıb.

İndiyə qədər əsərlər Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti, dövlət idarə və təşkilatları, ali təhsil, elmi-tədqiqat və layihə-konstruktor müəssisələri, ictimai və yaradıcı birliklər tərəfindən Mükafata təqdim olunub.

Bundan əvvəl fundamental və tətbiqi elmlərə aid əsərlər müvafiq elmi şuralarda müzakirədən sonra və ya Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti tərəfindən, bədii əsərlər isə yaradıcı ittifaqların qərarı ilə Mükafata təqdim edilib. Bu müddəa da ləğv olunub.

## Əmlak vergisinin ödənilməsi mexanizmi təkmilləşdiriləcək



***Fiziki şəxslərin binalara görə ödəməli olduğu əmlak vergisinin ödənilməsi mexanizmi təkmilləşdiriləcək.***

"Unikal" xəbər verir ki, bu, Prezident İlham Əliyevin "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" qanun tətbiqi barədə" imzaladığı fərmanda əksini tapıb.

Fərmana əsasən, Nazirlər Kabineti fiziki şəxslərin binalara görə ödəməli olduğu əmlak vergisinin ödənilməsi mexanizminin təkmilləşdirilməsi ilə bağlı təkliflərini altı ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etməlidir.

## Bu Dövlət Mükafatının məbləği artırıldı

***Prezident İlham Əliyev Elm, texnika, memarlıq, mədəniyyət və ədəbiyyat üzrə Dövlət Mükafatları Komissiyasının fəaliyyətinin təkmilləşdirilməsi, bəzi fərmanlarında və sərəncamında dəyişiklik edilməsi haqqında fərman imzalayıb.***

"Unikal" xəbər verir ki, fərmana əsasən, iki ildən bir verilən Elm, texnika, memarlıq, mədəniyyət və ədəbiyyat üzrə Dövlət Mükafatının məbləği 30 min manatdan 40 min manata çatdırılıb, sayı isə 5-dən 3-ə endirilib.

Mükafat hər cüt ildə 28 may - Müstəqillik Günü ərəfəsində komissiyanın qərarı ilə dövlət büdcəsinin vəsaiti hesabına verilir.

Bu Fərman 2024-cü il iyulun 1-dən qüvvəyə minir.

UNI-46_27 IYUl-QARA.qxd 12/28/2023 9:43 PM Page 13





# Depressiya ilə mübarizə aparan qidalar

***Depressiya bu gün tez-tez rast gəlinən ümumi psixi sağlamlıq problemidir. Əsas müalicə kimi tez-tez dərman və terapiya istifadə olunsa da, sağlam qidalanma insanın yaxşı hiss etməsinə və sağalma prosesinə kömək edə bilər.***

"Unikal"ın məlumatına görə, gün ərzində necə hiss etməyiniz nə qəbul etdiyinizdən asılıdır. Qida beyni qidalandırır, ona görə də yedikləriniz psixi sağlamlığınıza birbaşa təsir edir. Sağlam qidalanmağı həyat fəlsəfəsinə çevirərək depressiya və narahatlığınızı daha idarə edilə bilən hala gətirə bilərsiniz. Depressiyanı müalicə etmək üçün xüsusi bir pəhriz yoxdur, lakin bəzi qidalardan qaçınmaq və digərlərini daha çox yemək insanlara simptomlarını idarə etməyə kömək edə bilər.

Depressiya ilə mübarizə aparan qidaları təqdim edirik ...

1. Şokolad - Şəkərsiz və tünd şokolad sinirləri sakitləşdirir və kortizol hormonunu azaldaraq stressi azaldır.

2. Süd - Süd D vitamininin yaxşı mənbəyidir. Vücudunuzda D vitamini səviyyəsi çox aşağıdırsa, bu bəzən depressiyaya səbəb ola bilər. Norveçdə aparılan bir araşdırma müəyyən edib ki, D vitamini əlavələri qəbul edən insanlar, qəbul etməyənlərə nisbətən daha az depressiyaya düşüblər. Əgər süd məhsullarını sevmirsinizsə, qida rasionunuzda D vitaminini zənginləşdirilmiş taxıllar, meyvə şirələri və konservləşdirilmiş balıqlarla artıra bilərsiniz.

3. Badam - Tərkibində yüksək miqdarda maqnezium var. Maqnezium sakitləşdirici və rahatlaşdırıcı təsir göstərir. Buna görə də stressli və ya narahat olduğunuz zaman badam yeyə bilərsiniz.

4. Bal - Balın tərkibində təbii şəkər olduğu üçün qəfil şirin istəklərimiz yarandıqda və ya bədbəxt hiss etdiyimiz zaman süni məhsullar yerinə seçə biləcəyimiz bir qidadır. Tərkibindəki bu təbii şəkər depressiv hisslərlə mübarizə aparmağa kömək edir və sinirləri sakitləşdirir. Gün ərzində 1 çay qaşığı bal gərginliyi azaldır və sakitlik verir.

5. Qoz-fındıq- Bu qidalar bədəninizi sərbəst radikallar adlanan kiçik, zərərli hissəciklərdən qorumağa kömək edən selenlə zəngindir.

6. Alma - B qrupu vitaminləri, kalium və fosfor mənbəyi olan alma sinirləri sakitləşdirici təsirə malikdir. Eyni zamanda əhval pozğunluğundan əziyyət çəkən insanlar üçün gündəlik alma istehlakı depressiya kimi xəstəliklərin müalicəsində də faydalıdır.

8. Qəhvə - Kofein sizi daha motivasiyalı hiss etməyə kömək edə bilər. Tədqiqatçılar deyirlər ki, bir fincan qəhvə depressiya riskinizi azalda bilər.

9. Hil - Sinirlərə sakitləşdirici təsir göstərir. Onu dəmləyib içdiyiniz zaman psixoloji rahatlamanıza kömək edir və stressinizi azaldır.

10. Banan - Bananlarda yüksək miqdarda kalium var. Kalium sinir sistemini gücləndirməyə kömək edir və narahatlıqla mübarizədə çox faydalıdır.

*Gülayə Mecid*

# 2024-də inflyasiya nə qədər olacaq? - Mərkəzi Bankdan proqnoz

***"2024-cü ildə də Mərkəzi Bankın pul siyasəti ölkədə qiymət sabitliyinin təmin olunmasına, yəni inflyasiyanın aşağı və stabil səviyyədə saxlanılmasına yönəldiləcək. İnflyasiyanın "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" ilə elan edilmiş hədəf intervalında saxlanılması pul siyasətinin əsas məqsədi olacaq. Qiymət sabitliyini dəstəkləməklə Mərkəzi Bank ölkə iqtisadiyyatının dayanıqlı artımına şərait yaratmış olacaq".***

"Unikal" xəbər verir ki, bu barədə Azərbaycan Mərkəzi Bankının (AMB) 2024-cü il üçün pul siyasətinin əsas istiqamətləri barədə Bəyanatında bildirilir.



Pul siyasəti qərarları 2024-cü ildə də inflyasiya mühitində xarici və daxili amillərin dəyişimi və yenilənmiş makroiqtisadi proqnozlar əsasında veriləcək. Azaldıcı amillərin güclənməsi və inflyasiya gözləntilərinin sabitləşməsi 2024-cü ilə illik inflyasiyanın hədəf intervalında formalaşmasını proqnozlaşdırmağa əsas verir. Pul siyasətinin strateji və əməliyyat çərçivəsinin təkmilləşdirilməsi və pul siyasətinin kommunikasiyanın genişləndirilməsi istiqamətlərində islahatlar davam etdiriləcək. Bu islahatlar pul siyasəti qərarlarının inflyasiyaya ötürücülüyünün gücləndirilməsinə xidmət edəcək.

2024-cü ilin pul siyasətinin əsas istiqamətləri növbəti ilə qlobal iqtisadiyyat və əmtəə bazarları, habelə ölkənin xarici, fiskal, maliyyə və real sektorları üzrə proqnozları nəzərə alınmaqla işlənib. Proqnozlara görə, növbəti ildə qlobal iqtisadi artımın azalacağı, qlobal enerji və ərzaq qiymətlərinin sabitləşəcəyi, habelə ticarət tərəfdaşlarında inflyasiya proseslərinin səngiyəcəyi gözlənilir. Ümumilikdə, xarici şəraitin Azərbaycan iqtisadiyyatı üçün əlverişli olaraq qalacağı proqnozlaşdırılır.

2024-cü ilə qlobal iqtisadi artıma dair proqnozlar qlobal aktivliklə bağlı qeyri-müəyyənlik və inflyasiya ilə mübarizənin davam etməsi fonunda aparıcı ölkələrdə monetar siyasətin sərt qalması şəraitində formalaşır. Əlavə olaraq dünyada fraqmentasiyanın daha da dərinləşməsi, dövlət borcu böhranının daha çox ölkəyə yayılması ehtimalı, Çindəki iqtisadi bərpanın əmlak bazarında hələ də davam edən problemlər nəticəsində zəif qalması qlobal iqtisadi artım gözləntilərinə mənfi təsir göstərir. 2023-cü ildə bəzi Avropa ölkələrində ressesiyanın artıq baş verməsi qlobal ressesiya ilə bağlı riskləri daha da artırmışdır. BVF-nin oktyabr hesabatına əsasən, 2024-cü ildə qlobal iqtisadiyyatın artım proqnozu bir öncəki proqnozla müqayisədə 0.1 faiz bəndi aşağı reviziya etmiş və 2.9% səviyyəsində müəyyənləşdirilmişdir. Hesabatda iqtisadi artımın inkişaf etmiş ölkələrdə 1.4%, inkişaf etməkdə olan ölkələrdə isə 4% olacağı proqnozlaşdırılır. Aparıcı ölkələrdə maliyyə sabitliyi ilə bağlı risklərin geniş miqyasda reallaşması bu proqnozların özünü doğrultmasına mənfi təsir edə bilər.

Proqnozlar 2024-cü ildə dünyada inflyasiya təzyiqlərinin zəif templərlə azalacağını göstərir. BVF-nin son proqnozlarına görə, dünya üzrə inflyasiyanın 2023-cü ildəki 6.9%-dən 2024-cü ildə 5.8%-ə enəcəyi gözlənilir. Qeyd edək ki, 2017-2019-cu illərdə orta hesabla illik inflyasiya göstəricisi 3.4% olub.

Ümumilikdə qiymətlərin gözlənilən dinamikası ilə bağlı qeyri-müəyyənlik qalmaqdadır. BVF özünün son hesabatında əmtəə qiymətlərinə təsir ehtimalı yüksək olan bəzi mənfi şoklara toxunmuşdur. Belə ki, iqlim dəyişiklikləri ilə bağlı orta temperaturun gözləniləndən daha çox artması, geosiyasi gərginliklər fonunda dünya iqtisadiyyatının bloklara ayrılması əmtəə, xüsusilə də ərzaq və enerji qiymətlərinin yenidən artmasına səbəb ola bilər.

İqtisadi artımın yavaşlaması qlobal ticarətin dinamikasına da təsir göstərməkdədir. Son proqnozlara görə, dünya ticarətində artımın 2024-cü ildə 3.5% olacağı gözlənilir ki, bu da 2000-2019-cu illərin orta göstəricisi olan 4.9 faizdən xeyli aşağıdır. Dünya ticarətinin dinamikasına qlobal ticarətdə maneələrin artması, ötən dövrlərdə ABŞ dollarının bahalaşması təsir etməkdədir.

Enerji daşıyıcılarının dünya qiymətləri növbəti ildə də qlobal iqtisadi aktivlik, geosiyasi amillər və OPEC++ çərçivəsində qəbul edilən qərarların təsiri altında formalaşacaqdır. OPEC++ tərəfindən xam neft hasilatının azaldılmasının uzadılması neft qiymətinə artırıcı təsir edəcəkdir. Qlobal iqtisadi aktivliyin zəifləməsi isə dünya enerji qiymətlərinə azaldıcı təsir göstərəcəkdir. BVF 2024-cü ildə neftin qiymətinin 80 ABŞ dolları ətrafında olacağını proqnozlaşdırır.

Azərbaycan iqtisadiyyatının fəaliyyət mühitinin yüksək dəyişkənliyini nəzərə alaraq Mərkəzi Bank 2024-cü ildə də makroiqtisadi proqnozları müxtəlif ssenarilər üzrə müntəzəm yeniləyəcəkdir.

Qiymətləndirmələrə görə, 2024-ci ildə də tədiyə balansının cari əməliyyatlar hesabında profisit gözlənilir. Baza ssenari üzrə son proqnozlara görə, 2024-cü ildə cari əməliyyatlar hesabının profisiti 7-8 mlrd. ABŞ dolları olmaqla ÜDM-in 9-10%-i səviyyəsində gözlənilir. 2024-cü ildə də qlobal geosiyasi vəziyyət, əsas ixrac məhsulları üzrə dünya qiymətləri, ticarət tərəfdaşlarında makroiqtisadi durum, qeyri-neft-qaz sektoru üzrə ixrac potensialı Azərbaycanın tədiyə balansına təsir göstərən əsas amillər olacaqdır.

2024-cü ildə Azərbaycan iqtisadiyyatının real sektorunda artımın davam edəcəyi proqnozlaşdırılır. Mərkəzi Bankın proqnozlarına görə, 2024-cü ildə real iqtisadi artım tempinin 3-3.5%, o cümlədən qeyri-neft-qaz sektoru üzrə 5-5.5% civarında olacağı gözlənilir. Növbəti ildə də işğaldan azad edilmiş ərazilərdə irimiqyaslı bərpa-quruculuq işləri iqtisadi artıma müsbət impulslar verəcəkdir. Ölkədə makroiqtisadi sabitliyin qorunması iqtisadi artım proqnozunun reallaşmasının əsas şərtlərindən biri olaraq qalacaqdır. Hökumətin, beynəlxalq maliyyə-kredit təşkilatlarının və aparıcı reytinq agentliklərinin də Azərbaycandakı iqtisadi artımın perspektivləri ilə bağlı gözləntiləri nikbindir.

İqtisadi siyasətin digər istiqamətləri çərçivəsində həyata keçirilən tədbirlər də Mərkəzi Bankın makroiqtisadi proqnozlarının hazırlanmasında nəzərə alınacaqdır.

2024-cü ildə də fiskal siyasət pul siyasətinin həyata keçirilməsi şəraitinə, bank sisteminin likvidliyinə, valyuta bazarına və məcmu tələbə təsir göstərən amillərdən biri olacaqdır. Növbəti ildə büdcə qaydasının tətbiqinin davam etdirilməsi və borclanmanın yeni qəbul edilmiş parametrlər çərçivəsində həyata keçirilməsi fiskal dayanıqlığın təmin edilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Dövlət investisiyaları ölkənin istehsal potensialının artırılmasına və onun strukturunun optimallaşdırılmasına əhəmiyyətli töhfə verə bilər ki, bu da uzunmüddətli dövrdə inflyasiyaya təsir göstərəcək amildir.

Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"na uyğun olaraq pul siyasətinin hədəfi növbəti ildə də illik inflyasiyanı 4/2% intervalında saxlamaqdan ibarət olacaq. Əvvəlki illərdə olduğu kimi növbəti ilə də hədəf göstəricisi Dövlət Statistika Komitəsi tərəfindən hesablanan istehlak qiymətləri indeksinin son 12 ayda dəyişimi olacaq. Mərkəzi Bankın son proqnozlarına görə davam edən pul siyasəti nəzərə alınmaqla 2024-cü ildə illik inflyasiyanın 5-5.5% civarında olacağı gözlənilir. İnflyasiyanın xarici amillərinin səngiməsi və hökumətlə birlikdə həyata keçirilən antiinflyasiya tədbirləri ortamüddətli dövrdə inflyasiyanın hədəf diapazonunda formalaşmasını dəstəkləyəcək.

UNI-46_27 IYUI-QARA.qxd 12/28/2023 9:43 PM Page 14



# Şərqin fatehi Nadir şah və onu yamsılayan Napoleon Bonaprt...

***Tarixi şəxsiyyət Napoleon Bonapartın həyatından bəhs edən Ridli Skottun rejissorluq etdiyi filmə baxdım. Film çox möhtəşəm döyüş səhnələri ilə zəngindir. Film fransızların xoşuna gəlməsə də, rejissor və ssenaristlər nə var onu çəkib göstəriblər. Hələ deyərdim Ridli Skott fransız xalqının necə bir dəyərsiz olduğu barədə bəzi faktları gizlədib.***

Dünya tarixində ən çox döyüşdə qələbə qazanan sərkərdə titulunu bu günə qədər özündə saxlayan Napoleon Bonapart 56 qələbə ilə ilk yerdə durmaqda davam edir. Ondan sonra yerləri Sezar, Makedoniyalı İsgəndər tutur. Amma rejissor və ssenaristin gizlən tarixçilik əsər olan "Tarix-e Cahanqoşa-ye Nadiri"in (kitabın ilk adı Tarixe Nadiri olub. Sonradan farslar onun ojrinal nüsxələrini məhv edib adını dəyişirlər) bir nüsxəsini Parisdəki İmperator Kitabxanasına bağışlaması barədə yazır. Sonradan bu kitabı fransız dilinə çevrilməsini tapşıran İmperator o kitabla yanaşı, Andre de Claustrenin müəllifi olduğu "Histoire De Thamas Kouli-kan: Nouveau Roi De Perse" kitablarını daima yanında saxlamışdır. Hətta Müqəddəs Yelena adasında sürgündə olan zaman onun masasının üstündə bu kitablar olub.

Nadir şahla Napoleon arasında bir oxşarlıq və paralellik də onların hər ikisinin artilerist olması idi. Döyüş zamanı

Zəruri bir qeyd edim ki, Napoleon Bonapartın sağ əli Azərbaycanlı Rüstəm bəy olub. Hətta Nadir şahın ölümündən sonra onun varisləri Avropaya köçmüş idilər. Onlardan biri Johann Joseph von Semlin adını almış Mustafa Əli Mirzə xandır.

Napoleon da Nadir şahın ordu quruculuğundan yararlanmışdı. Nadir şah yürüşlər nəticəsində öz ordusunun effektivliyini daha da yüksəltmiş və ağır silahlarla siahlanmış süvari ordusuna qarşı döyüşə bilmək üçün texniki və hərb sənəti baxımından yüksək inkişaf etdirilmiş piyada ordusu qura bilmişdi. O, toplar və silahlar tərəfindən dəstəklənən, tüfəng və top atəşlərinin əlaqələndirildiyi çox güclü ordu qurmuşdu.

lətdikləri bir fakt da var ki, onu verməməklə tarixi gizlədirlər. Bu Napoleonun döyüş strategiyaları və sərkərdəlik qabliyyətinin Nadir Şahdan götürməsi faktıdır. İllərdir fransızlar və dünyanın bəzi tarixçiləri Azərbaycan torpaqlarında böyük imperiya quran, əfşar türkü olan Nadir Şahın nəinki Napoleona, bir çox Avropa və Şərq sərkərdələri üçün örnək olmasını gizlətməyə cəhd etmələrini müşahidə edirik.



İslam şərqini Nadir, Avropanı isə sonuncu dəfə Napoleon birləşdirdi. Hər ikisi böyük sərkərdə idilər və hakimiyyəti öz qılıncları, öz istedadları və qabiliyyətləri ilə fəth etmişdilər. Onlar digər monarxlar kimi hakimiyyət başında dünyaya gəlməmişdilər, sarayda yaşamamışdılar, saray adət-ənənəsinə bələd deyildilər. Onlar hakimiyyətdə öz qayda-qanunlarını, idarəetmə üsullarını yaratmışlar.

Çox az adam bilir ki, Napoleon hökmran olanda Nadir şahın bəzi xarizmatik hərəkətlərini təkrar etmişdi. Ciddi tədqiqatçılar Napoleonun hərəkətlərini diqqətlə izləsə və Nadir şahı bilsə, görər ki, onun bəzi addımları eynilə Nadir Şahın təkrarıdır. Sadəcə bir misal:

Taxta çıxıb böyük imperator adı alan günü, Papa imperator tacını onun başına qoymaq istəyəndə o tələsik tacı onun əlindən almış və özü öz başına qoymuşdu. Yəni, məni "heç kim yox, məhz özüm imperator etmişəm" mesajını verib. Lakin bu hərəkəti o özündən yox, Nadirqulu xanın 8 mart 1736-cı ildə Cavadda (Suqovuşanda) özünü şah elan edəndə molla başı Mirzə Əbdül Həsənin əlindən tacı alıb öz başına qoymasından götürdüyünü bilən çox az adam olar. Bəs, Napoleon bunu hardan bilirdi?

1807-ci ildə Qacar Dövlətinə səfər etmiş fransız şərqşünası Amadeus Jaubert Napoleonla görüşəndə Şərqin fatehi Nadir Şah barədə ona məlumatlar verir. Bu məlumatları oxuyan fransız fatehi onun haqqında daha çox məlumat toplamağa başlayır. Özü bu barədə bilirdi.

Rudi Matthee adlı tarixçi Napoelon Qacar dövlətinə, Fətəli şaha məktubunda bu barədə yazır və Fətəli şahın 1808-ci ildə Parisdəki səfiri Əsgər xan Əfşarın növbəti il Parisə gələndə Nadir şahın hakimiyyəti dövründə Mirzə Mehdi xan Astarabadi tərəfindən yazıiriçaplı və nisbətən xırda çaplı topların yerləşdirilməsi üsulu, atəşin troyektoriyasının müəyyən edilməsi, topların cinahlarda necə yerləşdirilməsi məsələsi və s. sahəsində onların hər ikisi onlaradək mövcud olmayan yeni qaydaların tətbiq edilməsi döyüşdə qazanılan qələbələrinin əsas rəhnini təşkil edirdi. Toplardan yeni qaydada istifadə onların hər ikisinə böyük şöhrət qazandırmışdı. Hər ikisi öz ölkələrində artileriyanın əsasını qoymuşdular.

Hər ikisi qorxmaz və mərd idilər. Onları döyüşün ən qızğın yerlərində görmək olardı. Öz sərkərdələrini at üstündə döyüşən görən əsgərlər daha da cürətlənir və düşmən üzərinə yeriyirdilər. Napoleon hətta bir neçə dəfə özünü döyüşün lap mərkəzinə atmış, sağında və solunda parlayan mərmilər ona dəyməmişdi.

Bir faktı da qeyd edim ki, Napoleon Rusiyaya qarşı müharibəyə başlayanda 700 min əsgəri var idi, 230 minlik rus ordusu isə bu dalğanın qarşısında duruş gətirə bilməzdi. "Memoires de Joseph Fouche, duc d'Otrante. Paris, 1824" kitabında belə bir qeyd var. Rus çarı Aleksandr Napoleona qarşı çıxmaq üçün düşmənçilik etdiyi ərazilərdən də kömək istəmişdi. Onun kömək istədiyi yerlərdən biri də Azərbaycan xanlıqları idi. 20 mindən bir az çox xanlıqlardan gələn hərbiçilər Rus çar ordusunda xidmət edirdi.

Napoleon da Misirə gələndə eyni sistemlə ordusunu qurmuşdu. Nadir Şahın Herat şəhərinin ələ keçirilməsi üçün aparılan döyüş strategiyasının oxşarını Napoleon Misiri fəth edən zaman istifadə etmişdi. Sizlərə iki hərbi döyüş quruluşu xəritəsini izah edim:

1) Əfqanlarla döyüşdə Nadir mühafizə birliyini Tal təpələri üzərində olan sol cinahını qorumaq üçün irəli göndərir. Nadir bu vaxtdan artilleriya xəttini piyada yoluna baxan yüksək yerə yerləşdirmək üçün istifadə edir. Nadir piyada qoşununu toplayaraq əfqan ordusunun mərkəzinə hücum edir və onu iki yerə bölür.

2) Borodino döyüşü 26 avqust-7 sentyabr 1812-ci ildə Napoleonun hərbi düzümü. Eyni dəst xətt. Nadir Şahın strategiyasının oxşarı.

Onların faciəli sonluqlarında fərq Nadir şahın xaincəsinə öldürülməsi, Napoleonun isə öz sərkərdələri tərəfindən satqıncasına tərk edilməsi oldu. Nadir şah o dünyaya, Napoleon isə əlçatmaz bir adaya (əvvəlcə Elbaya, sonra isə müqəddəs Yelena adasına sürgünə) göndərildi. Amma Napoleon özünün 100 günlük ikinci hakimiyyəti zamanı bir də parladı və Vaterlaoda satqınlıq nəticəsində məğlub edildi. Nadir şah isə heç vaxt məğlub olmadı, onun məğlubiyyəti ölümü oldu.

***Zaur Əliyev, dosent***



# Vətənin igid oğlu Qardaşxan

***44 günlük haqq savaşımızda hünər göstərərək adını Azərbaycanın yeni, şanlı tarixinə yazan, ölümündən sonra "Vətən uğrunda" medalına, "3-cü dərəcəli Vətən xidmətə görə" ordeninə layiq görülmüş Qardaşxan Elxan oğlu Əhmədli canından əziz bildiyi torpağa tapşırıldığı gündən 3 il ötdü.***

Bu münasibətlə Xəzər rayonu, Binə qəsəbəsində qəhrəman Vətən sevdalısının əziz xatirəsi dərin hörmət və ehtiramla yad olundu. Mərasim iştirakçıları - Xəzər Rayon İcra Hakimiyyəti başçısı Elşən Salahov, RİH başçısı aparatının məsul əməkdaşlarının və şəhidin ailə üzvləri onun Binə qəsəbəsində yerləşən Şəhidlər xiyabanındakı məzarını ziyarət edib, üstünə təzə güllər düzdülər.

Çıxışlar zamanı bildirildi ki, Müstəqil Azərbaycanımızın tarixinə qızıl hərflərlə yazılmış 44 günlük Vətən müharibəsi bizim şanlı tariximiz, şəhidlər qürur mənbəyimizdir. Bu, haqq savaşımızda Azərbaycan Ordusunun qüdrəti, şəhidlərin döyüş zamanı göstərdikləri şücaət bütün dünyanı heyrətə saldı. Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında qəhrəman Vətən övladlarının həyatları bahasına azad olunmuş Qarabağda bu gün müqəddəs bayrağımız dalğalanır. Çox qürur verici bir haldır. Bu sevinci bizə bəxş qəhrəman oğullardan biri də Qardaşxan Əhmədlidir. O, aramızdan vaxtsız getsə də, qazanılan parlaq qələbəmizin mərdlik, qəhrəmanlıq simvoluna çevrilib, əbədi olaraq milyonların qəlbində özünə yer edib.

Qardaşxan Əhmədli 1996-cı ildə Lənkəranda dünyaya göz açıb. 6 yaşından sonra ata-anası ilə birgə Binə qəsəbəsinə köçüblər. Orta təhsilini başa vurduqdan sonra bir müddət satıcı işləməyə başlayıb. Atası Elxan kişi Rusiyada olduğuna görə Qardaşxan həm bacılarına, həm də anasına baxırdı.

Vətənə məhəbbət, cəsurluq, kişilik, düşmənə nifrət uşaq vaxtlarında Qardaşxanın qəlbində özünə yer etmişdi. Odur ki, 2015-ci ildə Lənkəran şəhər Hərbi komissarlığı tərəfindən həqiqi hərbi xidmətə yola salınanda içdiyi and birinci növbədə erməni düşmənlərdan qisas almaq olur.Cəbhə bölgəsində doğma Azərbaycana oğulluq borcunu ləyaqətlə yerinə yetirib. 2016-cı ilin "Aprel döyüşlərinin" iştirakçısı olub və sözün əsl mənasında göstərdiyi şücaət adını tarixə yazıb. Həmin ilin iyul ayında xidmətini başa vurduqdan sonra ehtiyata buraxılıb. Ata-anasına kömək etmək məqsədilə fəhlə işləməyə başlayıb. 2019-cu ilin noyabr ayında ailə həyatı qurub.

2020-ci ilin sentyabr ayında İkinci Qarabağ müharibəsi başladığı zaman Qardaşxan bir başa döyüşən cəbhəyə yollanıb. Füzuli, Ağdam, Murovdağ istiqamətində gedən döyüşlərdə Vətən naminə alovlardan keçib. Düşmənə sarsıdıcı zərbələr endirib, xeyli sayda canlı qüvvəsini məhv edib və yaralı döyüşçüləri ağır müharibə meydanından çıxarıb. Qəhrəman Qardaşxan noyabr ayının 7-dən 8-nə keçən gecə Xocavənddə yerləşən Nərgiz təpə istiqamətində gedən savaş zamanı itkin düşüb, ondan xəbər çıxmayıb. Nəhayət, dekabr ayının 19-da Qardaşxanın şəhid olduğu bilinib. Bir müddət sonra torpağa tapşırılıb.

***Zəfər Orucoğlu, AJB üzvü***

UNI-46_27 IYUI-QARA.qxd 12/28/2023 9:43 PM Page 15





## Şahramanyana kortejdə getmək qadağan olundu

***Qarabağdakı separatçı rejimin sonuncu lideri Samvel Şahramanyan İrəvan patrulu tərəfindən saxlanılıb.***

"Unikal" xəbər verir ki, bu barədə Erməni KİV məlumat yayıb.

Qeyd olunub ki, polis separaçı rejimi buraxaraq onu ləğv edən Şahramanyanı kortejlə getdiyi üçün saxlayıb: "Şahramanyana xəbərdarlıq edilib ki, qanunla kortejdə getmək hüququ yoxdur".

## Qara dənizdə yük gəmisi minaya düşdü

***Qara dənizdə yük gəmisi minaya düşüb, 2 nəfər yaralanıb.***



"Unikal" xəbər verir ki, minaya düşən gəmidə yaralanan dənizçilər xəstəxanaya çatdırılıb.

Gəminin taxıl yükləmək üçün getdiyi bildirilir.

## PKK-nın məsul şəxsi zərərsizləşdirildi



***Türkiyə Milli Kəşfiyyat Təşkilatı (MİT) Suriyanın Qamışlı bölgəsində PKK/YPG-nin məsul şəxslərindən biri Eymen Kolini zərərsizləşdirdiyi açıqlayıb.***

"Unikal" xəbər verir ki, bu barədə Türkiyə mətbuatı məlumat yayıb.

Bildirilir ki, məhv edilən terrorçu PKK təşkilatının Suriyadakı yüksək səviyyəli rəsmilərindən biri imiş.

## Rusiya ordusu Ukraynada 513 uşağı qətlə yetirib

***Rusiya Federasiyasının genişmiqyaslı hücumu nəticəsində 513 uşaq həlak olub.***

"Unikal" xəbər verir ki, bu barədə Ukrayna Baş Prokurorluğunun mətbuat xidməti məlumat yayıb.

"Rusiya Federasiyasının genişmiqyaslı silahlı hücumu nəticəsində Ukraynada 1 674-dən çox uşaq xəsarət alıb. Dekabrın 28-də səhər saatlarına olan məlumata görə, müharibədə indiyədək 513 uşaq həlak olub", - məlumatda deyilir.



## "Qərb dövlətləri Cənubi Qafqaza sülh və sabitlik gətirmir" - Lavrov

***"Qərb dövlətləri Ermənistana və bütövlükdə Cənubi Qafqaza sülh və sabitlik gətirməyə çalışmır, onların vəzifəsi Moskvanı sıxışdırıb çıxarmaqdır".***



"Unikal" xəbər verir ki, bunu Rusiyanın xarici işlər naziri Sergey Lavrov ilin yekunları üzrə TASS-a müsahibəsində deyib.

Onun sözlərinə görə, Ermənistan hazırda bir sıra çağırışla üz-üzədir: "ABŞ və Aİ Rusiyadan fərqli olaraq respublikaya və bütövlükdə Cənubi Qafqaza sülh və sabitlik gətirməyə çalışmır. Onların vəzifəsi tamam başqadır - Moskvanı və digər regional gücləri bölgədə sıxışdırmaq, Balkanlar, Yaxın Şərq və Ukraynadan sonra yeni gərginlik ocağı yaratmaq. Bu çətin vəziyyətdən çıxış yolu göz qabağındadır - İrəvan, Bakı və Moskvanın üçtərəfli sazişləri ən yüksək səviyyədə həyata keçirilməlidir".

XİN rəhbəri qeyd edib ki, İrəvan Qərbin çağırışlarına tabe olaraq, Moskva ilə müttəfiqliyini dəyişməyə çalışır: "Təəssüf ki, rəsmi İrəvan qərblilərin nəsihətlərinə tabe olaraq, öz xarici siyasət xəttini yenidən formalaşdırmağa çalışır. Moskva ilə zamanın sınağından çıxmış müttəfiqlik Qərbdən konkret yardım deyil, yalnız qeyri-müəyyən vədlər mübadiləsi aparır.

İrəvan strateji dönüşün gedişinə haqq qazandırmaq üçün respublikanın bütün bədbəxtliklərinə, o cümlədən Qarabağın itirilməsinə görə Rusiyanı günahlandırmağa çalışır. Biz dəfələrlə Rusiyanın narahatlığı barədə ictimaiyyətə danışmışıq. İndi Ermənistan hakimiyyətinin qeyri-dost addımlarını bir daha sadalamağın mənası yoxdur.

Bu gün Rusiya ordusu regionda sülhün təmin edilməsində əsas elementdir. Biz Rusiyanın 102-ci hərbi bazasının Ermənistan ərazisində yerləşdirilməsinin məqsədəuyğunluğu ilə bağlı müzakirələri zərərli hesab edirik. Onun orada yerləşdirilməsi haqqında saziş 1995-ci il martın 16-da imzalanıb, ilk növbədə milli maraqlara və dövlətlərimizin Cənubi Qafqazda sabitliyin möhkəmləndirilməsinə dair ümumi məqsədinə əsaslanıb".

Lavrov həmçinin İrəvanın NATO-ya yaxınlaşmasından da bəhs edib: "Ümid edirəm ki, İrəvan alyansla əməkdaşlığın dərinləşməsinin milli müdafiə və təhlükəsizlik sahəsində suverenliyin itirilməsinə gətirib çıxardığını anlayır. Respublika silahlı qüvvələrinin NATO standartlarına uyğun modernləşdirilməsini davam etdirir və onun hərbi qulluqçuları Şimali Atlantika blokunun bəzi ştatlarında təlim keçir. Bu, bizi narahat etməyə bilməz. Biz dəfələrlə erməni tərəfdaşlarımızın diqqətini çəkmişik ki, NATO-nun əsl məqsədi regionda öz mövqelərini möhkəmləndirmək, eləcə də "parçala və idarə et" sxeminə görə manipulyasiyalar üçün şərait yaratmaqdır".

Diplomat Ukrayna lideri ilə bağlı bir sıra məsələlərə də diqqət çəkib: "On gün əvvəl Ukrayna prezidenti Volodimir Zelenskinin qondarma "sülh qətnaməsi" ilə bağlı Qərb ölkələri və Qlobal Cənubun bəzi ölkələrinin iştirakı ilə tam məxfi şəraitdə daha bir görüş keçirib. Onlar yanvarda daha bir görüş keçirməyə, fevralda isə bütöv bir sülh sammitini çağırmağa razılaşıblar.

Ukrayna lideri Volodimir Zelenski 2019-cu ilin dekabrında Fransa prezidenti Emmanuel Makronu, sonra isə Almaniya kansleri Angela Merkeli aldadıb. Zelenski Fransa və Almaniya liderlərini aldadaraq Donetsk və Luqansk Xalq Respublikalarına qarşı təcavüz hazırlamaq üçün vaxt qazandığını bildirib. Normand dördlüyü 2019-cu ilin dekabrında Parisdə görüşəndə ??Zelenski Makron və Merkeli aldatdı. Yəni bildirdi ki, DXR, LXR-ə xüsusi statusun verilməsi və bunun təmin edilməsi zərurəti status konstitusiyada daimi əsasdır".

***Ağarza Elçinoğlu***

## "Bayden ikili oynayır" - Tramp

***"ABŞ prezidenti Co Bayden Fələstin-İsrail münaqişəsində iki cəbhədə oynamağa çalışır".***



"Unikal" xarici KİV-ə istinadən xəbər verir ki, bu fikri Amerikanın keçmiş lideri Donald Tramp deyib.

"Bayden bu münaqişənin baş verməsinə icazə verdi. Baxın, Bayden iki cəbhədə oynamağa çalışır və düşünürəm ki, o, uğursuzluğa düçar olur", - Tramp bildirib.

Tramp həmçinin iddia edib ki, əgər o, ABŞ prezidenti olmasaydı, bu müharibə heç vaxt baş verməzdi.

***Gülayə Mecid***

## "Saakaşvili ən böyük cinayətkar kimi tarixə düşəcək" - Gürcü deputat

***"Gürcüstanın məhkum olunmuş eks-prezidenti Mixail Saakaşvili ən böyük cinayətkar kimi müasir tarixə düşəcək".***

"Unikal" xəbər verir ki, bu barədə hakim Demokratik Gürcüstan partiyasından olan deputat Rati İonatamişvili deyib.

"Mixail Saakaşvili biabırçılıqdır. O, müasir Gürcüstan tarixinin ən böyük cinayətkarı olmaqla yanaşı, Gürcüstanın Avropa İttifaqına namizəd statusu almasına düşmən münasibət bəslədiyi və ailəsinin milyonlarla dollar ödədiyi dezinformasiyanın köməyi ilə tarixə düşəcək. Onun məqsədi bu idi", - deputat bildirib.



UNI-46_27 IYUI-QARA.qxd 12/28/2023 9:43 PM Page 16



# AFFA 4 klubu cərimələdi

***AFFA İntizam Komitəsi 4 klubu cərimələyib.***

"Unikal" xəbər verir ki, buna Azərbaycan Kubokunun 1/8 final mərhələsində keçirilən oyunlardakı neqativ hallar səbəb olub.

"Sabah"la görüşdə 4 futbolçusu sarı vərəqə alan "Kəpəz" 700 manat cərimələnib. Bundan başqa, "Kəpəz" azarkeşləri tərəfindən hakimlərin ünvanına kütləvi şəkildə təhqiramiz ifadələr səsləndirildiyinə və bu hal cari mövsümdə 2-ci dəfə yaşandığına görə gəncəlilər daha 500 manat ziyana düşüblər.



"Araz-Naxçıvan"la qarşılaşmaya yanğınsöndürən avtomobil təyin edilmiş vaxtdan gec gəldiyindən, "İrəvan" 100 manat cərimə olunub.

"Turan Tovuz"la oyunda 4 futbolçusunun sarı vərəqə alması "Zirə"ni 700 manat xərcə salıb. Görüşün 10-cu dəqiqəsində azarkeşləri tərəfindən pirotexniki vasitədən istifadə edilməsi ucbatından "Turan Tovuz" 1500 manat cərimələnib.

Eyni zamanda, qərar alınıb ki, "Neftçi" ilə səfər matçında qonaq komandanın paltardəyişmə otağına dəymiş zərər "Qaradağ Lökbatan" tərəfindən ödənilsin.

# Hacı Əliyev narazıdır - İdman Nazirliyindən cavab



***Sərbəst güləş üzrə 3 qat dünya və 4 qat Avropa çempionu Hacı Əliyev Gənclər və İdman Nazirliyindən narazılıq edib.***

O, feysbuk hesabında paylaşım edərək ilin 10 ən yaxşı idmançısı siyahısında olmamasına və Xankəndidə Prezident İlham Əliyevlə görüşə dəvət almamasının səbəbini anlamadığını bildirib:

"Bu il ilk dəfə 4 qat Avropa çempionu olaraq adımı Azərbaycan güləş tarixinə yazdım. Bakıda keçirilən hərbçilər arasında dünya çempionatının qalibi oldum. Amma Gənclər və İdman Nazirliyi tərəfindən heç bir diqqət görmədim, heç ilin ən yaxşı 10 idmançısı siyahısına da düşmədim. Cənab Prezidentimiz İlham Əliyev tarixi qələbə qazandığımız Qarabağa idmançıları dəvət etdi və onlarla görüşdü, idmançıları nə qədər sevdiyini sübut etdi. Amma çox heyif ki, nazirlik adımı Prezidentlə görüş siyahısına salmadı. İnanıram ki, ölkə başçısı məni orda görməyə çox sevinərdi. Bu qədər qələbə qazanmağıma, nəticə əldə etməyimə baxmayaraq, nazirlik məni bu görüşdən məhrum etdi. Bu haqsızlığa görə inanıram ki, tədbir görüləcək".

Məsələyə Gənclər və İdman Nazirliyi reaksiya verib. Nazirlikdən "Qafqazinfo" saytının sorğusuna cavab olaraq bildirilib ki, 10-luq tam şəffaf sistemlə hesablanır: "Nazirlik xal sistemi ilə hazırlanan həmin 10-luğun formalaşdığı reytinqi bütün federasiyaların iştirakı ilə birgə hazırlayır. Belə ki, həmin siyahı hər bir federasiyanın təqdim etdiyi hesablama sisteminə əsaslanır.

Ölkə başçısı ilə görüşə gəlincə, sözügedən görüşdə Prezident İlham Əliyevin 20 dekabr 2023-cü il tarixli sərəncamı ilə "Azərbaycan Respublikası Prezidentinin Fəxri diplomu"na, "Tərəqqi" medalına, "Əməkdar bədən tərbiyəsi və idman xadimi" fəxri adına və Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünə layiq görülmüş şəxslər, eləcə də mənzil təqdim ediləcək idmançı və mütəxəssislər iştirak edirdilər.

Gənclər və İdman Nazirliyi idman federasiyalarının məsul şəxsləri ilə iki aydan bir keçirdiyi görüşlərdə müzakirələr aparır və hər bir qərar qəbul edilən zaman federasiyaların rəy və təkliflərini nəzərə alır. İnanırıq ki, federasiyalar öz məşqçi və idmançılarına prosesin necə aparıldığını lazımi qaydada izah edə biləcəklər.

Gənclər və İdman Nazirliyi sərbəst güləşçi Hacı Əliyevin ölkə idmanındakı xidmətlərini yüksək qiymətləndirir və ona bundan sonrakı karyerasında da uğurlar arzulayır".

# UEFA ilin son rəsmi reytinqini açıqladı - Bizimkilər neçəncidir?




***UEFA Avropa klublarının rəsmi reytinq cədvəlini yeniləyib.***

Qol.az xəbər verir ki, siyahıda 421 komanda yer alıb. Reytinqə Çempionlar Liqasının son qalibi İngiltərənin "Mançester Siti" komandası başçılıq edir (141.000 xal). "Bavariya" 2-ci (136.000), "Real" 3-cü yeri (123.000) tutur.

Son 5 mövsümün nəticələrinə əsasən hazırlanan reytinqdə Azərbaycandan 8 komanda yer alıb. Ən yüksək göstərici əvvəlkitək "Qarabağ"a məxsusdur. Ağdam təmsilçisi 60-cı yerdə qərarlaşıb (31.000).

Ümumilikdə UEFA reytinqində Azərbaycan klublarının mövqeyi belədir:

60. "Qarabağ"
145. "Neftçi"
278. "Qəbələ"
317. "Sabah"
318. "Zirə"
319. "Sumqayıt"
319. "Şamaxı"
321. "Səbail"

Avropa Liqasının pley-off mərhələsində "Qarabağ"ın gələcək rəqibi olan "Braqa" (Portuqaliya) 41-ci yeri tutur (49.000).

Əlavə edək ki, reytinqdə "Qarabağ"dan sonrakı 10 komanda sırasında müvafiq olaraq "Slovan" (Bratislava), "Bodo-Glimt" (Norveç), "İstanbul Başakşehir" (Türkiyə), "Molde" (Norveç), "Dinamo" (Kiyev, Ukrayna), "CFR Kluj" (Ruminiya), "Ludoqorets" (Bolqarıstan), "Midtyulland" (Danimarka), "Partizan (Serbiya) və "Viktoriya" (Çexiya) qərarlaşıb.



## Millimizin baş məşqçisi Türkiyə klublarından təklif aldı

***Qadın futbolçulardan ibarət Azərbaycan milli komandasının baş məşqçisi Siyasət Əsgərov yenidən Türkiyədə işləyə bilər.***

Bu barədə AFFA-nın baş katibi Sərxan Hacıyev məlumat verib.

Onun sözlərinə görə, qardaş ölkənin bir neçə təmsilçisi 36 yaşlı mütəxəssisin xidmətində maraqlıdır. Lakin milli assosiasiyanın baş katibi çalışdırıcı ilə maraqlanan komandaların adlarını açıqlamayıb.

Qeyd edək ki, Siyasət Əsgərov bir neçə gün öncə öz istəyilə Türkiyənin "Fomget" klubundan ayrılıb. (AzərTac)

## Azərbaycan cüdoçuları 2023-cü ildə bu qədər medal qazanıblar

***Azərbaycan cüdoçularının 2023-cü ildə qazandıqları medal sayı açıqlanıb.***




Bütün yaş qrupları üzrə fərdi və komandalar arasında keçirilən beynəlxalq yarışlarda ümumilikdə 237 medal əldə olunub.

Azərbaycan cüdoçuları il ərzində qatıldıqları mötəbər yarışlarda 127 final görüşünə çıxıblar. Bunun 74-də həlledici qarşılaşmada qalib gələrək, fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar.

53 gümüş qazanan cüdoçular 110 dəfə də bürünc mükafata yiyələniblər.

## "Zirə" rəqiblərini elan etdi

***"Zirə"nin qış təlim-məşq toplanışının proqramı məlum olub.***



Bu haqda klubun yaydığı açıqlamafa bildirilir. Komanda yanvarın 3-də bir araya gələcək. Hazırlığını Bakıda keçəcək "qartallar" toplanış müddətində 2 yoxlama oyunu keçirməyi planlaşdırıb. Komanda yanvarın 10-da "Araz-Naxçıvan", yanvarən 15-də isə "Qarabağ"la qarşılaşacaq.

"Zirə" daha sonra Misli Premyer Liqasının 19-cu turunda "Səbail"ə qarşı keçirəcəyi oyuna hazırlaşacaq.